

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 07 (901) ■ 21 fevral 2018 www.vergiler.az Qiyməti: 60 qəp.


# Azərbaycan öz qaz ehtiyatları ilə Avropa bazarına daxil olmağa hazırdır

**Fevralın 15-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib. Tədbirə, həmçinin, Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç də qatılıblar.**

Toplantıda çıxış edən dövlətimizin başçısı Məşvərət Şurasının növbəti iclasında iştirak etmək üçün paytaxtımıza təşrif buyuran bütün iştirakçılara təşəkkürünü bildirib. Təkcə «Cənub Qaz Dəhlizi» layihəsinə deyil, 1990-cı illərdə Azərbaycanın təşəbbüskarı olduğu enerji təhlükəsizliyi ilə bağlı digər layihələrə də verdikləri davamlı dəstəyə görə Avropa Komissiyasının rəhbərliyinə, ABŞ və Birləşmiş Krallıq hökumətlərinə minnətdarlığını ifadə edən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycan enerji sahəsində ABŞ və Avropa dövlətləri ilə yaxından əməkdaşlıq edir, əlaqələrimiz məqsədlərimizə çatmağa kömək edir: «Əlbəttə ki, mən Cənub Qaz Dəhlizinə üzv olan ölkələrdən - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliyadan olan tərəfdaşlarımızı, yüksək səviyyəli hökumət rəsmilərini, ümumilikdə böyük komandanın gələcək üzvlərini salamlamaq istərdim. Mən artıq onları böyük komandanın üzvləri hesab edə bilərəm, çünki biz artıq Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə də anlaşma memorandumları imzalamışıq. Şadam ki, bugünkü toplantıda bizə dost ölkələr olan Rumıniya və Türkmənistandan nümayəndələr ilk dəfə olaraq iştirak edirlər. Onların bu tədbirdə iştirakı bizim layihəmizə böyük əhəmiyyət verdiklərini nümayiş etdirir».

Dövlətimizin başçısı qeyd edib ki, «Şahdəniz», TANAP və TAP-a üzv olan şirkətlərin və maliyyə institutlarının güclü əzmi olmadan layihənin icrası mümkün olmazdı: «2015-ci ildə Azərbaycan Cənub Qaz Dəhlizi Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış etdi, çünki biz səylərimizi əlaqələndirməyə böyük ehtiyacın olduğunu aydın başa düşürdük. Əvvəlki illərdə Azərbaycan qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə birlikdə mühüm enerji layihələri həyata keçirib. Lakin bu dəfə daha çox ölkə və şirkət cəlb olunmuşdu, ona görə də bizim əlaqələndirməyə, maksimum səmərəliliyə ehtiyacımız var idi. Biz artıq dördüncü dəfədir görüşürük və bu əməkdaşlıq formatı səmərəli olduğunu və çox yaxşı nəticələrə yol açacağını sübut edib. «Cənub Qaz Dəhlizi» layihəsi Azərbaycanın indiyədək çox uğurlu olan və ölkəmizə öz iqtisadiyyatını şaxələndirməyə kömək edən enerji strategiyasının əsas elementlərindən biridir. Biz enerji ehtiyatlarından istifadə edərək qeyri-neft sektoru, insan kapitalı və infrastruktura investisiya yatırmışıq, bununla da iqtisadiyyatımızın uzunmüddətli, davamlı inkişafını təmin etmişik. Sözsüz ki, bizim əvvəlki illərdə Azərbaycanda həyata keçirdiyimiz layihələr «Cənub Qaz Dəhlizi»nin reallaşdırılması üçün güclü bünövrə yaradıb».

Hazırda regionda Azərbaycan, Gürcüstan, Türkiyə kimi üç ənənəvi müttəfiqi deyil, daha çox ölkəni əhatə edən güclü əməkdaşlıq formatının yaradıldığına diqqət çəkən dövlətimizin başçısı ötən dövr ərzində «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində əhəmiyyətli irəliləyiş əldə olunduğunu xatırladıb: «Son bir ildə biz bu layihənin 4 elementinin hər biri ilə bağlı xeyli irəliləyişə nail olmuşuq. «Şahdəniz-2» yatağı üzrə işlərin 99 faizdən çoxunu tamamlamışıq. Müqayisə üçün, bir il əvvəl bu rəqəm 90 faiz olub. Cənubi Qafqaz Boru Kəməri ilə bağlı işlərin təxminən 95 faizi tamamlanıb, bir il əvvəl bu rəqəm 90 faiz olub. TANAP-ın icrası 95 faizə yaxınlaşır, bir il əvvəl bu, 70 faizə yaxın olub. TAP-ın icrası bir il əvvəlki 34 faizlə müqayisədə 70 faizə yaxın, ola bilsin ki, 66-67 faiz tamamlanıb. Beləliklə, bu, həqiqətən də çox mühüm inkişafdır. Bu, onu göstərir ki, 2017-ci il bəlkə də layihənin icrasında həlledici il olub və hazırda biz yekunlaşmağa çox yaxınıq. Onu da bildirmək istərdim ki, 20 il bundan əvvəl Azərbaycan, Gürcüstan və Türkiyə arasında yaradılmış regional əməkdaşlıq həqiqətən də regionumuzda və Avropada enerji sahəsində inkişafda mühüm rol oynayıb. Çünki bu regional əməkdaşlıq təkcə nəhəng, genişmiqyaslı enerji layihələrinin həyata keçirilməsinə yol açmayıb, həm də regionumuzda sabitlik, proqnozlaşdırılma imkanı və çox səmimi əməkdaşlıq yaradıb».

Prezident İlham Əliyev çıxışında Azərbaycanın həyata keçirdiyi daha bir mühüm layihədən də söz açıb: «Ötən il oktyabrın sonunda Bakıda biz təkcə üç ölkə arasında deyil, həm də Asiya və Avropa arasında yeni dəmir yolu əlaqəsi olan yeni layihənin - Bakı-Tbilisi-Qarsın açılışını etdik. Bu, artıq Asiyadan Avropaya ən qısa yoldur, yüklərin daşınmasına sərf olunan zamanı iki dəfədən çox azaldır və artıq şirkətlərə xidmətlər göstərir. Əminəm ki, onlar bu layihəni ciddi şəkildə əsas prioritetlərindən biri hesab edəcəklər.

Bu gün artıq yüklərin artması onu göstərir ki, Bakı-Tbilisi-Qars yeni İpək Yolu layihəsinin çox mühüm elementi olacaq. Sözsüz ki, Gürcüstan, Türkiyə və Azərbaycan arasında güclü regional əməkdaşlıq olmasaydı, neft-qaz layihələri həyata keçirilməsəydi, Bakı-Tbilisi-Qars bəlkə də reallıq üçün deyil, sadəcə, tarix üçün bir layihə olacaqdı. Bu, bizim əldə etdiyimiz real nəticədir. Bu gün biz artıq geniş komanda ilə bu masa arxasında əyləşərkən görürük ki, Cənub Qaz Dəhlizinin üzvü olan ölkələr arasında eyni əməkdaşlığı yarada bilərik».




> **Biz enerji ehtiyatlarından istifadə edərək qeyri-neft sektoru, insan kapitalı və infrastruktura investisiya yatırmışıq, bununla da iqtisadiyyatımızın uzunmüddətli, davamlı inkişafını təmin etmişik**

Dövlətimizin başçısı onu da vurğulayıb ki, «Şahdəniz» Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyi olsa da, gələcəkdə Azərbaycanda əlavə resurslar hesabına beynəlxalq tərəfdaşlarla fəal şəkildə əməkdaşlıq sayəsində yeni layihələr, Xəzər dənizinin Azərbaycan sektorundakı yeni qaz yataqları üzərində işlər aparılacaq: «Xüsusilə tezliklə, ola bilsin ki, bir neçə ilə, bəlkə də bundan az müddətdə hasilatına başlanacaq «Abşeron» yatağı, çox böyük qaz ehtiyatı olan «Ümid» və «Babək» yataqları ilə bağlı Azərbaycan xarici şirkətlərlə fəal danışıqlar aparır. Tezliklə beynəlxalq əməkdaşlığa cəlb olunacağına ümid bəslədiyimiz başqa bir yataq «Qarabağ» adlanır. Həmçinin böyük qaz potensialı olan iki yataq - «Dan ulduzu» və «Əşrəfi». Beləliklə, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları «Şahdəniz» yatağından iki dəfədən artıq çoxdur - 2,6 trilyon kubmetr qaza bərabərdir və əminəm ki, daha çox olacaq. Çünki bizim təcrübəmiz onu göstərir ki, ilkin olaraq gözlənilən ehtiyatlar əvvəlkindən xeyli çox olur. Məsələn, 1994-cü ildə «Əsrin müqaviləsi» imzalananda «Azəri-Çıraq-Günəşli» yataqlarının ehtiyatları 500 milyon tondan bir qədər çox qiymətləndirilirdi. Təvazökarlıqla desək, hazırda bu rəqəm iki dəfə çox - 1 milyard tona yaxındır. Düşünürəm və ümid edirəm ki, qaz yataqlarında da eyni mənzərənin şahidi olacağıq. Ona görə də Azərbaycan qarşıdakı onilliklərdə dünya bazarlarına enerji ehtiyatlarının etibarlı, uzunmüddətli təchizatçısı olacaq. Bu gün Azərbaycan nefti bəzi Avropa ölkələrinin neft istehlakının üçdəbiri və ya daha çox, hətta 40 faizini təşkil edir. Azərbaycan öz qaz ehtiyatları ilə Avropa bazarına daxil olmağa hazırdır».

Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsini milli təhlükəsizliyin ən vacib elementi kimi dəyərləndirib: «Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir, bizdə bu, marşrutların və mənbələrin şaxələndirilməsidir. Bu, əsl şaxələndirmədir. Çünki təkcə marşrutların şaxələndirilməsi bizimkindən bir qədər fərqlidir. Cənub Qaz Dəhlizi enerji sahəsində əməkdaşlıq layihəsidir və əməkdaşlığın necə olmalı olduğunu göstərir. Əməkdaşlıq yalnız o zaman mümkündür ki, bütün tərəflər ondan faydalansın. Bu səbəbdən, başlanğıcda bizim əsas məqsədimiz istehsalçılar, tranzit ölkə və istehlakçılar arasında yaxşı balansın tapılmasıdır. Yalnız bu halda biz uğur qazana bilərik və layihənin uğurlu icrası bizim doğru yolda olduğumuzu göstərir. İstehsalçıların və ya istehsalçının, - hələ ki, cəmi bir istehsalçı var - Azərbaycan, - tranzit ölkələrin və istehlakçıların maraqları tam şəkildə nəzərə alınır və Cənub Qaz Dəhlizi cəlb olunmuş bütün ölkələrdə bir neçə milyardlıq investisiyalara yol açır. Bu, minlərlə yeni iş yeri deməkdir. Bu, təkcə enerji deyil, həm də nəqliyyat infrastrukturu, nəqliyyat infrastrukturuna investisiya yatırılması deməkdir. Cənub Qaz Dəhlizi marşrut boyunca yerləşən və bu layihənin üzvü olan ölkələrin bir çox hissələrinin qazlaşdırılmasına gətirib çıxaracaq. Bütün bunlar inkişaf, sabitlik, proqnozlaşdırılma imkanı deməkdir və əməkdaşlığa yol açır».

# Ermənistanın riyakar mövqeyi danışıqlara əsas maneədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirib. Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviçin Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirakına toxunan Prezident İlham Əliyev onunla görüşü zamanı energetika və digər sahələrdə əlaqələrimizin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını deyib. Dövlətimizin başçısı özünün Avropa Komissiyasına son səfərindən keçən dövr ərzində əlaqələrimizin bütün sahələrdə çox yaxşı inkişaf dinamikası göstərdiyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının təkcə energetika sahəsində deyil, digər sahələrdə də, o cümlədən siyasi, ticarət, investisiya, nəqliyyat, təhlükəsizlik, mədəniyyət sahələrində də genişləndirilməsinin vacibliyini qeyd edərək bütün bunların hazırda üzərində iş aparılan Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişdə öz əksini tapdığını vurğulayıb.

Avropa İttifaqı-Azərbaycan əlaqələrinin bütün sahələrdə müsbət istiqamətdə inkişaf etdiyini deyən Toivo Klaar əməkdaşlığımızın yaxşı perspektivləri olduğunu bildirib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli ətrafında geniş fikir mübadiləsi aparılıb, bu istiqamətdə səylərin münaqişənin sülh və danışıqlar yolu ilə həllinə yönəldilməsinin vacibliyi qeyd olunub. Prezident İlham Əliyev bildirib ki, Ermənistanın riyakar və qeyri-konstruktiv mövqeyi danışıqlarda tərəqqinin əldə edilməsinə başlıca maneədir. Ermənistan öz işğalçılıq siyasətini davam etdirir və işğal edilmiş torpaqlarımızda Azərbaycanın milli, dini və tarixi abidələrini məhv edir. Dövlətimizin başçısı vurğulayıb ki, münaqişənin tezliklə həll edilməsi üçün Ermənistan işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini geri çəkməyə başlamalıdır və beynəlxalq hüququn norma və prinsipləri bərqərar olmalıdır.

## Rəsmi xronika

**FEVRALIN 15-də:**

- Prezident İlham Əliyev Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrakla görüşüb. Azərbaycanın və Türkiyənin TANAP, TAP, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi irimiqyaslı layihələri birlikdə uğurla həyata keçirdiklərini vurğulayan türkiyəli nazir ötən ay TANAP layihəsinin icrası çərçivəsində sınaq işlərinə başlanıldığını deyib.
- Dövlətimizin başçısı Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç ilə də görüşüb. M.Şefçoviç bu toplantıda və Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən əvvəlki toplantılarda iştirakından məmnunluğunu bildirib, layihənin icrasında böyük inkişafın olduğunu qeyd edib.
- Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili ilə görüşüb. Dövlətimizin başçısı qeyd edib ki, neft-qaz sahəsindəki əməkdaşlıq ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və dayanıqlı inkişaf üçün əsas yaradır. D.Kumsişvili bildirib ki, ölkələrimizin birgə həyata keçirdikləri qlobal layihələr həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə və Avropa üçün böyük əhəmiyyətə malikdir.
- Dövlətimizin başçısı İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotto ilə də görüşü olub. Qonaq Azərbaycan-İtaliya əməkdaşlığının digər sahələrdə də inkişafı üçün səylərin gücləndirilməsinin önəmini vurğulayıb. İtaliya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini bildirən dövlətimizin başçısı qeyd edib ki, tezliklə İtaliya qaz sahəsində Azərbaycanın ən böyük ixrac bazarlarından biri olacaq.


Kassa çeki tələb etmək hər bir vətəndaşın hüququdur — səh. 2

İqtisadi islahatlar möhkəm təməl üzərində qurulur — səh. 3

İslahatların təməlində şəffaflıq və qarşılıqlı etimad dayanır — səh. 4

Regionlarda sərmayə qoyuluşu artır — səh. 5



## Vergilər Nazirliyində görüş...

■ Vergilər naziri Mikayıl Cabbarov fevralın 15-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb. Söhbət zamanı iki ölkə arasında mövcud iqtisadi əlaqələr, əməkdaşlıq perspektivləri, vergi sahəsində əlaqələrin genişləndirilməsi, investisiya mühiti kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Bununla yanaşı, vergilər naziri Birləşmiş Krallığın Gəlirlər və Gömrük Xidməti ilə Azərbaycanın Vergilər Nazirliyi arasında ikitərəfli və çoxtərəfli müstəvidə səmərəli əməkdaşlığın mövcudluğunu və nazirliyinin bu əməkdaşlığın vergitutmanın müxtəlif sahələri üzrə davam etdirilməsində maraqlı olduğunu bildirib.

Baronessa Nikolson Böyük Britaniya şirkətləri tərəfindən Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuluşlarının artırılmasının, həmçinin kənd-təsərrüfatı, turizm və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. O, Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi və bu sahədə islahatların davam etdirilməsi baxımından hər iki ölkənin vergi qurumları arasında əlaqələrin genişləndirilməsinə daim dəstək verməyə hazır olduğunu bildirib.

■ Fevralın 16-da vergilər naziri Mikayıl Cabbarov İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder ilə görüşüb. Söhbət zamanı iki ölkənin vergi orqanları arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın mövcud durumu, qarşılıqlı maraq doğuran sahələr üzrə təcrübə mübadiləsi və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib. Görüşdə, həmçinin, Azərbaycanda fəaliyyət göstərən İsveçrə şirkətləri və onların vergi orqanları ilə münasibətləri ətrafında fikir mübadiləsi aparılıb.

■ Fevralın 19-da vergilər naziri Mikayıl Cabbarov Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Naveed Hassan Naqvinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Söhbət zamanı bankın Azərbaycanın vergi islahatları prosesinə dəstəyi və bu sahədə texniki yardımın göstərilməsi ilə bağlı məsələlər müzakirə edilib.

Qeyd olunub ki, Dünya Bankının texniki dəstək göstərə biləcəyi sahələrin müəyyənləşdirilməsi məqsədilə Vergilər Nazirliyi ilə müzakirələr və dəyərləndirilmələr aparılıb. Belə sahələr sırasında vergi güzəştləri və azadolmalarının monitorinqinə dəstək, onların səmərəliliyinin qiymətləndirilməsi, transfer qiymətləri və BEPS (vergitutma bazasının azaldılması və mənfəətin başqa ərazilərə köçürülməsi ilə mübarizə üzrə Tədbirlər Planı) tədbirlərinin icrası sahəsində Vergilər Nazirliyinin əməkdaşlarının bacarıqlarının artırılması və potensialının gücləndirilməsi, habelə vergi siyasətinin təhlilinə dəstəyin göstərilməsi kimi istiqamətlərə xüsusi diqqət yetirilib.

Dünya Bankı tərəfindən Azərbaycan Respublikası Vergilər Nazirliyinin hazırladığı və hökumətin iqtisadi islahatlarla bağlı Strateji Yol Xəritəsinin dəstəklənməsi məqsədi daşıyan Fəaliyyət Planının ətraflı təhlil olunduğu və qarşıdakı 2 il ərzində əməkdaşlıq sahələrinin müəyyən edildiyi diqqətə çatdırılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Rəqəmsal bankçılıq iqtisadi həyatın mühüm amilinə çevrilir

Bankçılıq sənayesinin gələcəyi ilə bağlı vəziyyəti aydınlaşdırmaq və proqnozlar vermək məqsədilə «Business Insider»in tədqiqat xidməti olan «BI Intelligence»nin analitiki Con Heqqestion bank xidmətlərindən istifadə edən 18-34 yaş arasında 1500 nəfər gənclə sorğu aparmışdır. Bankçılıq vərdişləri ilə bağlı sorğunun yekunlarına görə, gənc nəsil bank filiallarının və şöbələrinin «tarixə çevriləcəyi» qənaətindədir. Bank filiallarının və şöbələrinin köhnəlib keçmişə qarışmaları üçünsə hələ xeyli müddət tələb olunur. «TuranBank»ın İnformasiya Texnologiyaları üzrə baş direktoru **Bəxtiyar Məmmədov** rəqəmsal bankçılığın perspektivləri ilə bağlı fikirlərini bölüşür.

Texnologiyaların inkişafı insanların yaşayışında, həyat tərzində, baxışlarında kifayət qədər dəyişikliklərə səbəb olmuşdur. Təqribən 70-80 il əvvəlki dövrlə müqayisə etsək, bu gün yaşadığımız cəmiyyət əvvəlki dövrün insanı üçün ya bir xəyal kimi görünər, ya da heç təsəvvür oluna bilməzdi. Lakin bir əsrdən də az bir zaman içində cəmiyyət əsaslı şəkildə dəyişdi, texnologiyalar bütün həyatımıza köklü şəkildə sirayət etdi. Hazırda da texnologiyaların inkişafı cəmiyyəti dəyişməkdədir.

İnkişaf etmiş ölkələrdə 70 il öncə bank sistemində kompüterlərə rast gəlinmirdi. Bu gün isə bankları kompütersiz təsəvvür etmək mümkün deyildir. 70 il öncə banka gəlmədən hər hansı əməliyyat aparmaq mümkün deyildi. Bu gün isə artıq heç bir filialı olmayan və yalnız internet şəbəkəsi üzərindən xidmət göstərən banklar mövcuddur. Əvvəllər nağd şəkildə dövr edən pulu rabitə kanalları ilə dövr edən elektron informasiya böyük həcmdə əvəz etmişdir. İnkişaf etmiş ölkələrdə banklarda istənilən növ əməliyyatı elektron şəkildə həyata keçirmək mümkündür. Rəqəmsal bankçılıq xidməti kifayət qədər geniş yayılmışdır.

Azərbaycanda rəqəmsal bankçılığın inkişafı istiqamətində həm banklar, həm də dövlət tərəfindən xeyli iş görülsə də, hələlik bu sahədə inkişaf etmiş ölkələrə çatmaq mümkün olmamışdır. Bunun əsas səbəbi isə rəqəmsal bankçılığın Azərbaycanın bank sektoruna bir qədər gec daxil olmasıdır. Banklar bu sahənin vacibliyini qəbul etdikdən sonra belə, bir müddət onu sanki riskli hesab etmiş və kifayət qədər investisiya qoymaqdan çəkinmişdilər. Bəzi banklarda isə investisiyalar düzgün idarə edilməmiş, mütəxəssis rəyləri nəzərə alınmamış, satıcı şirkətlərin fikirləri əsas götürülmüş, layihələr düzgün idarə olunmamışdı. Bu da, təbii olaraq, investisiya qoyuluşuna mənfi təsirini göstərmişdi. Bu zaman psixoloji faktorlar da müəyyən rol oynamışdı. Məsələn, uzun illər bank sektorunda alınan əsas vəsaitlər daha çox maddi aktivlər idi və «gözlə görünməyən» qeyri-maddi aktivlərin, xüsusilə də proqram təminatları və sistemlərinin əldə olunması üçün irihəcmli investisiyaların qoyuluşu tam qəbul edilmirdi, yaxud texnologiya ilə bağlı yerli mütəxəssislərin rəyləri nəzərə alınmırdı, banklar üçün texnoloji istiqamət sanki ögey görünürdü.

Lakin sonda informasiya cəmiyyətinin reallıqları bu cür maneələri təbii şəkildə aradan qaldırdı. Artıq ölkədə bütün banklar distant və rəqəmsal bank xidmətləri olmadan müasir bankçılığın inkişafının mümkünsüzlüyünü qəbul etmiş, bu sahəyə ciddi investisiyalar yatırmağın qaçılmaz olduğunu anlamışlar. Azərbaycanda bir sıra banklar internet bankçılıq, mobil bankçılıq və bu tip müxtəlif növ çoxkanallı bankçılıq xidmətlərini tətbiq edirlər.

**Artıq ölkədə bütün banklar distant və rəqəmsal bank xidmətləri olmadan müasir bankçılığın inkişafının mümkünsüzlüyünü qəbul edib, bu sahəyə ciddi investisiyalar yatırmağa çalışırlar**

«Elektron imza və elektron sənəd haqqında» Qanun rəqəmsal bankçılığın onurğa sütununu təşkil edir. Son dövrlərdə nağdsız hesablaşmalarla bağlı qanunvericilikdə dəyişikliklər, hüquqi və fiziki şəxslər üçün nağd dövriyyənin müəyyən şərtlər daxilində məhdudlaşdırılmasının özü də bu istiqamətdə atılan addımlardan hesab edilə bilər. Qanunvericilik insanları nağdsız və tam şəffaf dövriyyələrə cəlb etdikcə, istər-istəməz rəqəmsal bankçılığa meyil güclənir. Yeni nəslin rəqəmsal həyata daha yaxın olması da bu istiqamətin inkişafını labüdləşdirir. Son illərdə Mərkəzi Bank tərəfindən həyata keçirilmiş «Milli Ödəniş Sisteminin modernizasiyası», «Hökumət Ödəniş Portalı», «Banklararası kart mərkəzi» layihələri nəticəsində qurulmuş sistemlər bu inkişafın daha bir göstəricisidir. Tezliklə «Ani ödənişlər sistemi» layihəsinin həyata keçirilməsi nəzərdə tutulur ki, bu da ölkəmizdə rəqəmsal bankçılıq istiqamətində növbəti bir uğurlu addım olacaqdır. Dediklərimizdən belə ümumi nəticəyə gəlmək olar ki, növbəti illərdə Azərbaycanda rəqəmsal bankçılıq daha da inkişaf edəcək, bu sahəyə düzgün və optimal investisiyalar qoymayan banklar isə rəqabətdə məğlub olacaqlar.

# Kassa çeki tələb etmək hər bir vətəndaşın hüququdur

**Nazirlər Kabinetinin 28 dekabr 1995-ci il tarixli qərarında Azərbaycan ərazisində nəzarət-kassa aparatlarının (NKA) tətbiq olunması, NKA-ların satış obyektlərində quraşdırılması qaydaları və digər vacib məsələlər nəzərdə tutulub. O vaxtdan da əhali ilə pul hesablaşmalarının aparılmasına icazə verilən müxtəlif obyektlərdə nəzarət-kassa aparatlarının quraşdırılmasına başlanılıb.**

Hökumət tərəfindən kassa aparatlarının quraşdırılması və istifadəsinə nəzarət edən səlahiyyətli qurum kimi Vergilər Nazirliyinə müvafiq tapşırıqlar verilib. NKA-ların tətbiqi ilə bağlı qanunvericiliyə də dəyişikliklər edilib. Vergi Məcəlləsinin 50.7-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində nağd pul hesablaşmaları aparan vergi ödəyiciləri ilə hesablaşmalar nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməlidir.

İlk dövrlərdə NKA quraşdırılması üçün ödəyicilər vergi orqanına gələrək müvafiq sənədləri doldururdularsa, Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlər çərçivəsində NKA-nın qeydiyyata alınması və ya qeydiyyatdan çıxarılması prosesi son illərdə tam elektronlaşdırılıb. Vergi ödəyicisi onlayn rejimdə İnternet Vergi İdarəsində «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçərək öz istifadəçi kodu, parol və şifrəsi və ya gücləndirilmiş elektron imza, o cümlədən «ASAN imza» vasitəsilə sistemə daxil olub «Nəzarət-kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması» menyusu vasitəsilə bu prosesi həyata keçirə bilər. «Nəzarət-kassa aparatının qeydiyyata alınması (qeydiyyatdan çıxarılması) haqqında ərizə» ilə müraciətdən sonra NKA-lar qeydiyyatdan keçirilir, hazırlanmış qeydiyyat vərəqəsi isə yalnız vergi ödəyicisi müraciət etdikdə iki iş günü ərzində kağız daşıyıcılarında vergi ödəyicisinə təqdim edilir, digər hallarda isə proqram təminatı vasitəsilə vergi ödəyicisinin e-qutusuna ötürülür. Beləliklə, ödəyici elektron sənəd formasında vergi orqanına müraciət etməklə asan və rahat şəkildə işini yekunlaşdıra bilir.

***Qanunvericiliyin tələbləri ciddi şəkildə pozulur***

Bu gün Azərbaycanda NKA-ların qeydiyyatı, quraşdırılması, istifadəsi üçün lazım olan bütün infrastruktur mövcuddur. Amma bu sahədə əsas problem vergi ödəyiciləri tərəfindən NKA-lardan istifadənin qənaətbəxş səviyyədə olmamasıdır.

Vergi orqanları vətəndaşlar arasında maarifləndirici səciyyəli təşviqat işləri aparsa da, insanların özündə çek tələb etmək vərdişləri formalaşmayıb. Müşahidə apardığımız marketlərin əksəriyyətində vətəndaşların kassa çeki tələb etmək istəklərinin olmadığı nəzərə çarpır. Hətta çek təqdim edilməsinə baxmayaraq, çox vaxt vətəndaşlar onu götürmək istəmir, kənara atır. Bu halda mağazanın satıcıları müştərinin maraqsız olmasından istifadə edərək çek verməkdən yayınır. Doğrudur, iri supermarketlərin əksəriyyəti alıcılara çek təqdim edir, amma kiçik mağaza və marketlərdə kassa aparatları mövcud olsa da, faktiki işləmir. Şəxsi müşahidlərimizə əsasən, Nizami rayonu ərazisində fəaliyyət göstərən «Ucuz», «Çinar», «Pioner», «Elmar» , «Park» marketlərində, «Qloriya», «Vəfa», «Ucuz market», «Dünya», «Ən ucuz market», «Fəxri» satış mərkəzində və digər mağazalarda kassa aparatlarından istifadə sanki satıcıların yadından çıxıb. Eləcə də Yasamal rayonu ərazisində yerləşən «Nur market», «Ramin market», «Elvin market», Nərimanov rayonunda fəaliyyət göstərən «Təbriz malları», «Arzu market», «Nərmin market», «Məhəllə market», «24 market», «Günəş» mağazası və digər obyektlərdə kassa çeki verilmir. Bu siyahını uzatmaq da olar. Regionlarda fəaliyyət göstərən marketlərin isə böyük əksəriyyətində, ümumiyyətlə, nəzarət- kassa aparatları yoxdur.

***Marketlərin verdiyi qəbzlər kassa çeki hesab edilə bilməz!***

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, vətəndaşlar tərəfindən daxil olan şikayətlərin böyük qismi ticarət, xidmət, istehsal və digər sahələrdə kassa çeklərinin verilməməsi, yaxud həmin çeklərdə düzgün olmayan məlumatların tərtib edilməsi ilə bağlıdır: «İctimai təşkilat olan qurumumuzun əməkdaşlarının apardığı araşdırmaların nəticələri göstərir ki, bir sıra marketlərdə alıcıya verilən qəbzlərdə göstərilən malların qiymətləri vitrində yazılmış qiymətlərlə tam fərqlidir. Kassadan çıxarılan qəbzlərdəki qiymətlər malın satış qiymətlərindən yüksək olur. Vətəndaş piştaxtada malın üzərindəki qiymətə baxaraq aldanıb onu seçir, pul ödəyəndə isə malın baha satıldığının şahidi olur. Bu, açıq-aşkar istehlakçının aldadılmasıdır. Bir neçə mal növü üzrə hesablandıqda alıcıdan faktiki olaraq xeyli miqdarda artıq pul alınır. Bu yerdə xüsusilə vuğulamaq lazımdır ki, alış-veriş zamanı təqdim olunan qəbzlər satış dövriyyəsini göstərmək üçün kassa çeki hesab edilə bilməz. Çünki alıcıya alınan malların siyahısı və qiymətlərinin əks edildiyi «müştəri qəbzi» vergi uçotu sənədi deyil və bu fakt vergidən yayınmanın bir formasıdır. Mağazaların vergidən yayınmasına qarşı Vergilər Nazirliyi tərəfindən tədbirlər görülməlidir, bunu qanun tələb edir. Ancaq vətəndaşlar da bu məsələdə fəal olmalıdırlar, satıcıdan çek tələb etməli, çek verilmədiyi halda vergi orqanlarını məlumatlandırmalıdırlar. Yəni bu iş hamının birgə iştirakı ilə həll edilməlidir. İctimai qurumlar da bu prosesdə fəallıq nümayiş etdirməli, maarifləndirmə xarakterli təşviqedici materiallar yaymalı, müxtəlif aksiyalar keçirməlidir. Vergilər Nazirliyi ilə ictimai qurumların birgə fəaliyyəti gücləndirilməli, mətbuat və televiziyada bu istiqamətdə maarifləndirici proqramlar yayımlanmalıdır».

***Kassa çeki olmadığı halda, alınan mal geri qaytarılmır***

İqtisadçı Oqtay Məmmədovun sözlərinə görə, kassa çekinin verilməməsi satış mağazalarının dövriyyəni gizlətməsində əsas vasitələrdən biridir. Bu, qeyri-qanuni yığımlar və vergidən yayınmanın bir növüdür. Kassa çekinin alıcıya təqdim edilməməsi büdcədən verginin yayındırılması ilə yanaşı, istehlakçının da hüququnun pozulmasıdır: «Vergi nəzarətinin gücləndirilməsi baxımından kassa aparatlarının quraşdırılması labüddür. Vergi orqanları əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunmasına, nağd hesablaşmaların tətbiq edildiyi sahələrdə NKA-ların tətbiqinə vergi nəzarətini həyata keçirir və bu tədbirləri başqa cür izah etmək düzgün deyil. Bu gün təkcə mağaza və ictimai iaşə obyektləri deyil, şadlıq evləri və restoranlarda da müştəriyə kassa çekləri təqdim olunmur. Qanunvericiliyə əsasən, şadlıq evləri nağd pul hesablaşmaları aparan sahibkarlıq obyektləridir».

Mütəxəssisin sözlərinə görə, müştərinin əlində hüquqi baxımdan alış-veriş etməsi barədə təsdiqedici sənəd - kassa çeki olmadığı halda, o, aldığı malı geri qaytara bilmir: «Buna görə də alıcılar da ayıq olmalı - marketlərdən hər hansı məhsul aldıqda mütləq satıcılardan çek tələb etməlidirlər. Bu, hər bir istehlakçının hüququdur».

***Kassa çeki tələb etmək heç bir halda ayıb sayılmamalıdır***

Bu günlərdə «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusunda keçirilən konfransda vergilər naziri Mikayıl Cabbarov hər bir xərclənən manatın leqal iqtisadiyyatda dövriyyəyə cəlb olunmasının vacibliyinə diqqət çəkərək, alıcıları kassa çekini tələb etməyə çağırıb. Kassa çeki tələb etməyin ayıb sayılmamalı olduğunu deyən nazir bu məsələdə vətəndaşları fəal olmağa, onlarda formalaşmış adət və vərdişləri dəyişməyə dəvət edib: «Yəqin ki, evinizin altında yerləşən dükanın satıcısı sizin qonşunuzdur və ondan alınan çörəyə görə kassa çeki tələb etmək qonşuluq münasibətlərinə xələl gətirə bilər. Lakin həmin anda siz yadınıza salsanız ki, vergilər nəyə xərclənir, yəqin ki, bu qərarı qəbul etmək sizin üçün daha asan olacaq. Vergilər bizim hər birimizin rifahına, torpaqlarımızı müdafiə edən ordumuzun saxlanılmasına, uşaqlarımızın gəzdiyi küçə və parkların işıqlandırılmasına, onlara təhsil verən müəllimlərin əməkhaqqına, məktəblərin təmirinə və digər sosial sahələrə xərclənir. Vergilər, həmçinin, bir və ya hər iki valideynini itirmiş uşaqların və onların təhsil aldığı müəssisələrin saxlanılmasına, orada çalışan işçilərin əməkhaqqına sərf olunur. Bu xərclər bütövlüklə ödədiyimiz və ya çek istənilməsini ayıb saydığımız halda ödəmədiyimiz vergilər hesabına formalaşır. Ona görə də bizim yalnız bir yolumuz var və biz bu yolu birgə keçməliyik».

> “Vergilər bizim hər birimizin rifahına, torpaqlarımızı müdafiə edən ordumuzun saxlanılmasına, uşaqlarımızın gəzdiyi küçə və parkların işıqlandırılmasına, onlara təhsil verən müəllimlərin əməkhaqqına, məktəblərin təmirinə və digər sosial sahələrə xərclənir

Kassa çekinin tələb edilməməsi milyonlarla manat vəsaitin dövlət büdcəsindən gizlədilməsinə yol açır. Həmin vəsaitlər isə hər birimizin sabahına təsir edə bilər, bu pullarla insanların sosial həyatını yaxşılaşdırmaq olar. Ona görə də dövriyyəyə cəlb edilməli vergilərin ödənilməsi aktual məsələ kimi gündəmdən düşməməlidir.

Vergilər Nazirliyi dövlətin iqtisadi maraqlarının, dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsində sahibkarları üzərlərinə düşən vəzifələri anlamağa çağırır, xoş məramla əməkdaşlığa dəvət edir.

**ELBRUS**

Kassa eki NKA quraşdırılmış obyektlər tərəfindən alınmış mallar, görülmüş işlər və göstərilmiş xidmətlər müqabilində alıcılara (sifarişçilərə) təqdim olunan müvafiq məlumatları özündə əks etdirən sənəddir. Bu sənəddə vergi ödəyicisinin adı, VÖEN-i, çekin vurulma tarixi və saatı, obyektin adı və yerləşdiyi ünvan, malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləği, gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi, NKA-nın markası və zavod nömrəsi əks etdirilir.



st nl kl: ri

- Malların (işlərin, xidmətlərin) dövriyyəsi üzrə istər operativ, istərsə də müəyyən tarixlərə görə hesabatların əldə edilməsinə imkan yaradır;
- İstehlakçıların əsassız müdaxiləsinin qarşısını alır;
- Alınmış mal keyfiyyətsiz və ya standartlara uyğun olmadıqda, onun geri qaytarılması üçün alıcıya hüquqi əsas verir;
- Satıcı malları (işləri, xidmətləri) təqdim edərkən alıcının aldadılması hallarının qarşısını alır.

# İqtisadi islahatlar möhkəm təməl üzərində qurulur



**Son illər ölkəmizdə həyata keçirilən iqtisadi islahatlardan, yenidənqurma və quruculuq işlərindən əldə olunmuş nəticələrin nəzərdən keçirilməsi məqsədilə ünvanladığımız sualları Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Elçin Quliyev cavblandırır.**

***- Elçin müəllim, Vergilər Nazirliyinin keçirdiyi «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusunda konfransda Siz də iştirak edirdiniz. Konfransda çıxış edən vergilər naziri Mikayıl Cabbarov nazirliyin strategiyasını açıqladı. Ölkədə gedən iqtisadi proseslər kontekstində bu strategiyaya münasibətiniz maraqlı olardı...***

- Konfransda vergi sistemində şəffaflığın təmin edilməsinin əsas şərtlərindən birinin şəffaflıq olduğu vurğulandı. Vergilərin yığılmasında, vergi öhdəliklərinin yerinə yetirilməsində şəffaflığın təmin olunması bu prosesin bütün tərəflərini inkişafa apara bilər.

Vergi daxilolmalarının artırılmasının iki alternativ yolu var: vergi dərəcələrinin artırılması və vergitutma bazasının genişləndirilməsi. Vergi dərəcələrinin artırılması, xüsusilə iqtisadi əsası olmadan yüksəldilməsi uzunmüddətli dövrdə heç bir perspektiv vəd etməyən səmərəsiz yoldur. Bu, vergilərin sahibkarlıq və investisiya fəaliyyətinin təşviq edilməsi kimi funksiyanın yerinə yetirilməsi yolunda böyük maneədir. Bu baxımdan, vergitutma bazasının genişləndirilməsinin strateji xətt kimi seçilməsi təqdirəlayiqdir. Bu, həmçinin, gizli iqtisadiyyatın dövriyyəyə cəlb edilməsi yolu ilə hər kəsin ödəməli olduğu qədər vergi ödəməsi deməkdir. Qeyd olunan strategiya vergitutmanın bərabərlilik və ədalətlilik kimi keyfiyyət göstəriciləri əldə etməsinə gətirib çıxaracaqdır. İkinci mühüm aspekt isə inam atmosferinin yaradılmasıdır. Hazırda bu, bizim ən çox ehtiyac duyduğumuz məsələlərdəndir. Amma razılaşmaq lazımdır ki, inamın yaranması bir ayın, iki ayın işi deyil, bu, uzunmüddətli və düşünülmüş siyasət, biznes dairələri ilə sıx əməkdaşlıq, açıq müzakirələr, yeni yanaşmalar tələb edir.

Makroiqtisadi sabitliyin qorunması, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması, yüksək əlavə dəyər yaradan və ixraca yönələn məhsul istehsalının genişləndirilməsi, ən başlıcası isə qazanılan uğurların Azərbaycan vətəndaşının rifahının daha da yaxşılaşdırılmasına yönəldilməsi ölkə iqtisadiyyatının prioritetlərini təşkil edir.

Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti keyfiyyətcə yeni prioritetləri müəyyən edərək dayanıqlı inkişaf modelinə keçidi şərtləndirmiş, yüksək rəqabət qabiliyyətli və diversifikasiya olunmuş iqtisadiyyatın formalaşmasını sürətləndirmişdir. Azərbaycanda yaradılmış böyük iqtisadi potensial və aparılan məqsədyönlü islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, investisiyaların təşviqi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft ixracının stimullaşdırılması, idarəetmənin təkmilləşdirilməsi və digər tədbirlər iqtisadiyyatın davamlı inkişafını təmin edir.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının başlıca məqsədi uzunmüddətli perspektivdə ölkənin sosial-iqtisadi resursları nəzərə alınmaqla mütərəqqi dünya təcrübəsi əsasında davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi ilə yüksək sosial rifaha nail olmaqdır. Konsepsiya məqsədli dövlət proqramları, strategiyalar, konkret tədbirlər planları, kompleks və davamlı iqtisadi islahatlar ölkədə innovativ, bilik iqtisadiyyatının formalaşdırılması, idxaldan asılılığın maksimum dərəcədə azaldılması, ixracın diversifikasiyası, biznes mühitinin əlverişliliyinin artırılması, xarici və yerli investisiyaların cəlb edilməsi və digər istiqamətlərdə mühüm işlərin həyata keçirilməsinə hüquqi və iqtisadi zəmin yaratmışdır. Ölkədə aparılan iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» təsdiq edilmişdir. İqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılmasını təmin edəcək bu sənəd 2017-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı əhatə edir. Kənd təsərrüfatından tutmuş sənayeyə qədər bütün sferaları, həmçinin insan kapitalının inkişafı, biznes mühitinin yaxşılaşdırılması kimi əsas istiqamətləri əhatə edən sənəddə hər bir işin nəticəsinin dəqiq meyarlarla ölçülməsi həmin işlərin effektivliyinin artırılmasına şərait yaradır.

Ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Təsadüfi deyildir ki, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında ixracyönümlü sənaye istehsalı, sənayenin inkişafının müasir innovasiyalar əsasında təmin olunması, sənaye zonaları kimi mexanizmlərdən geniş istifadə başlıca hədəf kimi müəyyənləşdirilmişdir. Bu məqsədin reallaşdırılması üçün rəqabətqabiliyyətli sənaye məhsulları istehsal edən, qabaqcıl texnika və texnologiyalara əsaslanan sənaye müəssisələrinin yaradılmasına üstünlük verilir, Bakıda və regionlarda sənaye zonalarının təşkili istiqamətində işlər davam etdirilir.

***- Qeyri-neft sektorunun inkişafı dedikdə, ilk növbəbə, sənaye və aqrar sahənin hazırkı vəziyyəti daha çox maraq doğurur...***

- Ölkəmizdə sənaye və texnologiyalar parklarının, sənaye zonalarının yaradılması istiqamətində ciddi addımlar atılmış, kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye parkları, ayrıca Yüksək Texnologiyalar Parkı və Mingəçevir Yüksək Texnologiyalar Parkı yaradılmışdır. Müasir tələblərə cavab verən və rəqabətqabiliyyətli istehsal infrastrukturuna malik bu müəssisələr ölkə iqtisadiyyatının tarazlaşdırılmış inkişafının təmin olunması, innovativ idarəetmə və qabaqcıl texnologiyaların tətbiqi, yeni istehsal sahələrinin yaradılması və məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynayır. Məhz bu səbəbdən, həmin sahələr üzrə bir sıra güzəştlər nəzərdə tutulur: sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunmuşlar.

İnnovativ iqtisadiyyatda daha bir başlıca prinsip aqrar sektorun modernləşdirilməsidir. Bu məqsədlə aqrar sektorun innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların yaradılması əsas hədəflərdir. Dövlət başçısının tapşırığına uyğun olaraq, hazırda aqroparkların, o cümlədən müasir cins heyvandarlıq kompleksinin və iri taxılçılıq təsərrüfatlarının yaradılması təşviq olunur. Aqrar sahədə həyata keçirilmiş sistemli tədbirlər nəticəsində ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlmiş, bir sıra ərzaq məhsullarının istehsalı artmış, ixrac imkanları genişlənmişdir.

***- Azərbaycanın ixrac potensialı günü-gündən artır, ixrac bazarlarındakı yerimiz möhkəmlənir... Sizcə, bu prosesdə xarici ölkələrdə açılan ticarət evlərinin rolu nədən ibarətdir?***

- Son illərdə Azərbaycanda xarici iqtisadi əlaqələrin mühüm tərkib hissəsi olan ticarət fəaliyyətini tənzimləyən qanunvericilik təkmilləşdirilmiş, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış yeni Gömrük Məcəlləsi, «Gömrük tarifi haqqında», «Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında» qanunlar və digər normativ hüquqi aktlar qəbul edilmişdir. Əlverişli coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün ən cəlbedici ölkələrdən birinə çevirmişdir. Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı respublikamızı həm də investisiya ixracatçısına çevirmişdir. Azərbaycan şirkətlərinin potensialı və peşəkarlığı xeyli artmış, bir sıra ölkələrdə, o cümlədən Avropada mühüm infrastruktur layihələrinin icrasında özəl şirkətlərimiz aktiv fəaliyyət göstərməyə başlamışlar.

Ölkədə istehsal olunan yerli mənşəli məhsulların ixracının genişləndirilməsi, rəqabətədavamlı və ixrac potensiallı məhsullar bazasının zənginləşməsi istiqamətində «Made in Azerbaijan» brendinin xarici bazarlarda genişmiqyaslı təşviqinə dair dövlət başçısının 5 oktyabr 2016-cı il tarixli fərmanı mühüm əhəmiyyət kəsb edir. Yerli məhsullarımızın xarici bazarlarda tanıdılması və satışının dəstəklənməsi məqsədilə artıq Belarusda Azərbaycan Ticarət Evi fəaliyyətə başlamışdır, Rusiya, Ukrayna və digər ölkələrdə də belə evlərin yaradılması planlaşdırılır. Bundan əlavə, dövlət başçısının 2017-ci il 26 yanvar tarixli «Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında» fərmanına uyğun olaraq, Rusiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələri üzrə ölkəmizi təmsil edən ticarət nümayəndələri fəaliyyətə başlamışlar.

Respublikamızın xarici iqtisadi əlaqələrinin genişləndirilməsi, ixrac imkanlarının artırılması və «Made in Azerbaijan» brendinin təşviqi istiqamətində görülmüş tədbirlər nəticəsində qeyri-neft məhsullarının ixracı əsaslı şəkildə artmışdır.

***- Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da kiçik və orta sahibkarlıq iqtisadiyyatın bel sütunudur... Kiçik və orta sahibkarlığın inkişafı üçün biznes mühitinin sağlamlaşdırılması, optimallaşdırılması istiqamətində hansı tədbirlər görülür?***

- Ölkənin inkişaf strategiyasında biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı mühüm əhəmiyyət daşıyır. Son illərdə bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirilmiş, qanunvericilik bazası təkmilləşdirilmiş, inzibati prosedurlar sadələşdirilmiş, vergi yükü azaldılmış, sahibkarlığa sistemli dövlət dəstəyi göstərilmişdir. Azərbaycan Prezidentinin yeni qlobal çağırışların nəzərə alındığı iqtisadi islahatlar paketinə uyğun olaraq, 2015-ci il noyabrın 1-dən sahibkarlıq sahəsində aparılan yoxlamalar iki il müddətinə dayandırılmış, sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə apelyasiya şuraları yaradılmış, ixracın və investisiyaların təşviqi mexanizmləri formalaşdırılmış, gömrük prosedurları sadələşdirilmiş, tələb olunan sənədlərin sayı azaldılmış və konkretləşdirilmiş, idxal-ixrac əməliyyatları sahəsində mütərəqqi mexanizmlər tətbiq edilmiş, kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı üçün subsidiyalar nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Prezidentinin «Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» 2016-cı il 1 mart tarixli fərmanının icrası məqsədilə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalara və siyahıya uyğun olaraq, 2016-cı ilin oktyabrından ötən dövr ərzində qeyri-neft məhsullarının ixracına görə yerli sahibkarlara 2 milyon manatdan çox ixrac təşviqi ödənilmişdir ki, bu da ixracyönümlü məhsul istehsalının canlandırılması və ixracın stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Görülmüş işlər nəticəsində Azərbaycanda güclü özəl sektor formalaşmış, müasir texnologiyalara əsaslanan minlərlə müəssisə açılmış, özəl bölmənin ÜDM-də payı 80%-i, məşğulluqda 75%-i, dövlət qeydiyyatına alınmış sahibkarlıq subyektlərinin sayı isə 880 mini ötmüşdür.

Əlverişli biznes və investisiya mühitinin formalaşdırılması, sahibkarlığın inkişafı istiqamətində aparılan islahatlar beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapır. Ölkələrin biznes mühitini qiymətləndirən və ən mühüm hesabatlardan olan «Doing Business 2018» hesabatında Azərbaycan 190 ölkə arasında 57-ci pillədə qərarlaşmışdır.

> **Ölkədə maliyyə intizamını gücləndirmək və vergitutma bazasını genişləndirmək üçün nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması davam etdirilməlidir**

***- Sirr deyil ki, bu gün Azərbaycanın bank-maliyyə sistemində bir sıra problemlər mövcuddur. Bir iqtisadçı kimi, bu problemlərin həlli yollarını necə görürsünüz?***

- Əlverişli biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən kompleks tədbirlərlə bərabər, sahibkarlıq subyektlərinin ağlabatan şərtlərlə maliyyə resurslarına çıxışının təmin edilməsi vacib məsələlərdəndir. Bununla əlaqədar bank sistemində etibarlılığın artırılması, milli valyutaya inamın bərpa edilməsi və iqtisadi vahidlərin gözləntilərinin idarə edilməsi, normativ hüquqi bazanın qabaqcıl beynəlxalq təcrübə və milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla təkmilləşdirilməsi vacib məsələlərdəndir. Bu baxımdan, dünyada baş verən iqtisadi-siyasi proseslər fonunda Azərbaycanda qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin, habelə ödəniş sistemlərinin fəaliyyətinin çevikliyinin və şəffaflığının təmin olunması, həmçinin bu sahələrdə tənzimləmə və nəzarət sisteminin təkmilləşdirilməsi istiqamətində səylərin gücləndirilməsi əsas şərtlərdəndir. Qiymətli kağızlar bazarının institusional inkişafı, bu sahədə tələb və təklifin dəstəklənməsi, maliyyə şəffaflığı prinsiplərinin və korporativ idarəetmənin tətbiqinin genişləndirilməsi, bu sahəyə dair normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə zəruri tədbirlər həyata keçirilməlidir. Sığorta bazarının inkişaf etdirilməsi ölkə əhalisinin, habelə iqtisadi vahidlərin itkilərinin qarşılanması, onların sərbəst vəsaitlərinin iqtisadiyyatın ehtiyacları üçün investisiya şəklində yenidən yerləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

***- 2017-ci ildən islahatların tərkib hissəsi olaraq nağdsız hesablaşmaların dövriyyəsinin artırılması istiqamətində geniş tədbirlər görülməyə başlanıldı, «Nağdsız hesablaşmalar haqqında» Qanun qüvvəyə mindi. İndiki vəziyyətdə ölkəmizdə nağdsız hesablaşmaların inkişaf artımı sizi qane edirmi?***

- Hazırda ölkədə qeyd etdiyiniz qanunvericilik aktlarına uyğun aparılan işləri təqdirəlayiq hesab etmək olar. Bununla yanaşı, ödəniş sistemlərinin inkişaf etdirilməsi, elektron ödəniş sistemlərindən daha fəal istifadə olunması, dövriyyədəki nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi, əmanətçilərin və bank kreditorlarının maraqlarının müdafiəsinin gücləndirilməsi vacibdir. Hesab edirəm ki, ölkədə maliyyə intizamını gücləndirmək və vergitutma bazasını genişləndirmək üçün nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması davam etdirilməlidir.

***- Vergi islahatları həmişə diqqətdə olan məsələdir. Bu islahatların nəticələri ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı...***

- Hazırda Azərbaycanda çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsi üçün yaradılmış qanunvericilik bazası qabaqcıl dövlətlərin təcrübəsindən istifadə etməklə ölkədə maliyyə sabitliyinin əldə olunması, daha əlverişli investisiya mühitinin yaradılması, sahibkarlığın inkişafının təşviqi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, vergi nəzarətinin səmərəliliyinin yüksəldilməsi, vergi ödəyicilərinə geniş əhatəli xidmətlərin göstərilməsi istiqamətində kompleks tədbirləri əhatə edir və bu sahədə islahatlar davam etdirilir.

Fikrimcə, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara daha əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi öz prioritetliyini saxlamalıdır. Bu baxımdan, növbəti illərdə vergi siyasətinin əsas istiqamətlərinin sahibkarlığın müasir sahələrinin, o cümlədən innovativ sahibkarlığın inkişaf etdirilməsinə, investisiya qoyuluşlarının genişləndirilməsinə, aktiv vergi siyasətinin həyata keçirilməsinə, vergi dərəcələrinin optimallaşdırılmasına yönəldilməsi daha məqsədəuyğundur.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# ƏDV-nin diferensiallaşdırılması təklif olunur

**Son vaxtlar ölkənin iqtisadi həyatında aktuallaşan mövzulardan biri də əlavə dəyər vergisinin (ƏDV) diferensiallaşdırılmasıdır. Sahibkarlıq subyektlərinin, sahibkarların ictimai birliklərinin və biznes assosiasiyalarının təmsilçiləri bir sıra istehlak mallarının qiymətlərinin ƏDV-nin diferensiallaşdırılması yolu ilə tənzimlənməsinə dair təkliflərlə Vergilər Nazirliyinə müraciət ediblər. Nazirlik həmin məsələnin nəzərdən keçiriləcəyini, sahibkarların təkliflərinin dəyərləndiriləcəyini istisna etmir.**

Millət vəkili Vahid Əhmədovun sözlərinə görə, Azərbaycanda ƏDV-nin dərəcələrinə yenidən baxılmalı və fərqləndirilməlidir: «Ölkəmizdə bütün məhsullara standart 18%-lik ƏDV təyin edilib. Avropa ölkələrində isə bu rəqəm 15-25% arasında dəyişir. Hesablama Palatası əlavə dəyər vergisinin diferensiallaşdırılması ilə bağlı təkliflərini Milli Məclisə təqdim edib. Həmin təkliflərə baxılmalı və lazım olan məsələlər üzrə qərar qəbul olunmalıdır. Müxtəlif zəruri istehlak mallarının dərəcələri üzrə təhlillər aparılmalıdır. Elə məhsullar var ki, onlar üçün əlavə dəyər vergisinin 18% təşkil etməsi olduqca yüksəkdir. Gündəlik tələbat mallarına, xüsusilə də ərzaq məhsullarına tətbiq edilən vergi yüngülləşdirilə bilər. Elə məhsullar da var ki, onlara 25-30% ƏDV tətbiq etmək mümkündür: məsələn, zərgərlik, maşın mexanizmləri, məişət məmulatlarına ƏDV-ni artırmaq olar.

Vergilər Nazirliyinin hazırda biznesin daha geniş fəaliyyətinə stimul verən və inzibatçılığı asanlaşdıran qaydalar üzərində çalışdığı bəllidir. Hesab edirəm ki, ƏDV dərəcəsinin diferensiallaşdırılması qeyri-neft sektoru üzrə istehsal həcminin artımına səbəb olacaq, istehsal dövriyyəsi artacaq və nəticədə yeni vergitutma mənbələri yaranacaq».

İqtisadçı Radi Fətullayev hesab edir ki, Azərbaycanda ƏDV-nin 18% səviyyəsində müəyyən edilmiş dərəcəsinin diferensiallaşdırılması və Avropa dövlətlərindəki vergi dərəcələri mexanizminə uyğunlaşdırılması indiki dövr üçün aktualdır: «Şaxələndirilmiş qeyri-neft iqtisadi modelinə keçid dövründə bazar münasibətlərinin maksimum liberallaşdırılması biznesin cəlbediciliyi və sosial yönümlülük baxımından ən vacib şərtlərdəndir. Liberallaşmanın uğurlu həlli real sektorun maliyyələşməsinin (subsidiyalar, dotasiyalar, sosial yardımlar, əmək haqlarının artırılması, xüsusilə yerli xammal hesabına istehsal və ixrac fəaliyyətinin güzəştli kreditləşdirilməsi və s.) təkmilləşdirilməsi ilə yanaşı, bazar qiymətlərinin vergi dərəcələrinin optimallaşdırılması yolu ilə tənzimlənməsi səviyyəsindən asılıdır. Bu mənada, vergi dərəcələrinin optimallaşdırılması real sektorda daxili istehsala üstünlük verilməsini, istehlakın daxili istehsal hesabına təmin olunmasını, xammal və yarımfabrikatların ixracı ilə müqayisədə əlavə dəyəri yüksək olan hazır məhsulun ixracını stimullaşdıra bilər. Stimullaşdırıcı tədbirlər çərçivəsində atılacaq əsas addımlardan biri məhz istehlak qiymətlərinin tərkibində yer alan ƏDV-nin diferensiallaşdırılmasıdır. Nəzərə alınmalıdır ki, ƏDV tətbiq edilən qeyri-xammal iqtisadi modellərə malik əksər ölkələrdə (Avstriya, Almaniya, Belçika, Böyük Britaniya, İsveç, Niderland, Türkiyə, Fransa, Çin və s.) ƏDV-nin standart dərəcəsinin mal (iş, xidmət) qrupları üzrə diferensiallaşdırılması təcrübəsi mövcuddur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrdə ƏDV-nin standart dərəcəsi ilə yanaşı, ilkin tələbat malları üzrə azaldılmış dərəcələrdən geniş istifadə olunur. Deyilənləri nəzərə alsaq, qeyri-neft sektorunun daha da şaxələndirilməsi və inkişafının daxili istehsal hesabına sürətləndirilməsi, idxaldan asılılığın minimuma endirilməsi, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi kimi hədəflərə nail olmaq istiqamətində görülən tədbirlərə əlavə dəstək kimi ƏDV dərəcəsinin diferensiallaşdırılması da məqsədəuyğundur».

**E.CƏFƏRLİ**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, yanvar ayında dövlət büdcəsinin gəlirləri **1393,1 milyon** manat, xərcləri isə **976,5 milyon** manat təşkil edib.
- Bu ilin yanvar ayında Azərbaycanda ticarət əməliyyatlarının həcmi ümumilikdə **1 milyard 727 milyon 332 min** ABŞ dolları olub.
- Ötən ay xarici müəssisə və təşkilatlar tərəfindən Azərbaycanda əsas kapitala **459,8 milyon** manat vəsait yönəldilib.
- Yanvar ayında Azərbaycan əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 11,7% artaraq **3882,3 milyon** manat olub.
- 2017-ci ildə tikinti sahəsində çalışan muzdlu işçilərin orta siyahı sayı **102,7 min** nəfər təşkil edib.
- Bu ilin ilk ayında Azərbaycanda sənaye məhsulunun **19,1%**-i emal sektorunda istehsal olunub.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Kənd təsərrüfatı məhsullarının satışı

***Vergi ödəyicisi həm özünün istehsal etdiyi, həm də digər şəxslərdən aldığı kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olur. Bu halda hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinə (VM) əsasən (102.1.11, 106.1.14, 164.1.18, 199.9 və 219.7-ci maddələr), kənd təsərrüfatı məhsullarının istehsalçıları, torpaq vergisi istisna olmaqla, Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini, eyni zamanda həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən 2019-cu il yanvarın 1-dək, gəlir vergisindən isə müddətsiz azad edilmişlər.

VM-in 13.2.60-cı maddəsində göstərilmişdir ki, kənd təsərrüfatı məhsullarının istehsalı - sənaye üsulu (o cümlədən xüsusi broyler təsərrüfatları, avtomatlaşdırılmış tövlə sistemləri və sair) da daxil olmaqla, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların (ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən) əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsidir.

**Qeyd olunanlara əsasən:**

Vergi ödəyicisi tərəfindən istehsal olunmuş kənd təsərrüfatı məhsullarının satışından əldə edilmiş gəlirlər (hasilatın həcmi), müvafiq olaraq, gəlir vergisindən və sadələşdirilmiş vergidən azaddır. Kənd təsərrüfatı məhsullarının istehsalçılarından alınmış məhsulların satışından əldə olunmuş gəlirdən (hasilatdan) isə vergi ödəyicisi seçdiyi vergitutma metodundan (gəlir vergisi və ya sadələşdirilmiş vergi) asılı olaraq, müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəməlidir.




## REGİONLARDAN VERGİ XƏBƏRLƏRİ

- Fevralın 14-də Saatlı rayonunda 5 saylı Ərazi Vergilər İdarəsinin vergi ödəyiciləri ilə keçirdiyi görüşdə 50-dən artıq fərdi sahibkar, müəssisə rəhbəri və ya onların səlahiyyətli nümayəndəsi iştirak etmişdir. Tədbirdə vergi ödəyicilərinə yanvar ayının 1-dən malların, işlərin və xidmətlərin təqdim olunması zamanı elektron qaimə-fakturanın tətbiqi qaydaları izah edilmişdir.
- Fevralın 15-də Ağcabədi şəhərində 8 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları ilə bələdiyyə təmsilçilərinin növbəti görüşü keçirilmişdir. Tədbir zamanı yerli (bələdiyyə) vergilərinin alınması sahəsində mövcud olan problemlər, onların aradan qaldırılması yolları ətrafında geniş müzakirələr aparılmış, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.
- Fevralın 15-də Ağstafa rayonunda yerləşən vergi ödəyicilərinə xidmət mərkəzində 14 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları tərəfindən keçirilən görüşdə vergi ödəyicilərinə pərakəndə ticarət, ictimai iaşə, topdansatış və istehsal fəaliyyəti sahələrində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması, malların mədaxilinin və təqdim olunmasının sənədləşdirilməsi, həmçinin gəlirlərin və xərclərin müəyyən edilməsi qaydaları izah edilmişdir.
- Fevralın 16-da Xırdalan şəhər Mədəniyyət evində 2 saylı Ərazi Vergilər Departamenti tərəfindən yeni uçota alınmış 35 vergi ödəyicisinin iştirakı ilə görüş keçirilmiş, elektron xidmətlərdən istifadənin mənimsənilməsi, hesablaşmaların yalnız nağdsız qaydada aparılması və elektron qaimə-fakturanın tətbiqi kimi aktual mövzular barədə söhbət aparılmışdır.
- Fevralın 16-da Quba şəhərində 3 saylı Ərazi Vergilər İdarəsi əməkdaşlarının yerli bələdiyyələrin nümayəndələri və «Vergi dostları» şəbəkəsinin təmsilçiləri ilə görüşü keçirilmiş, qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

# İslahatların təməlində şəffaflıq və qarşılıqlı etimad dayanır

Vergilər Nazirliyi vergi ödəyicilərinə müraciət edərək bildirib ki, vergi sistemində şəffaflığın təmin edilməsinə, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsinə yönəldilmiş islahatlar ödəyicilərin də öz öhdəliklərinə qanunauyğun yanaşmasını tələb edir. Şəffaflıq yalnız vergi orqanlarının fəaliyyətini deyil, həm də vergi ödəyicilərinin öz öhdəliklərinə düzgün yanaşmasını əhatə etməlidir. Vergilərini tam həcmdə və vaxtında ödəyən hər bir intizamlı ödəyici vergi orqanlarının etibarlı tərəfdaşı olacaq və belə olan halda, onlara daim dəstək göstəriləcəkdir. Vergi hesabatına bilərəkdən saxta məlumatları daxil edənlər və vergidən yayınmağa cəhd göstərənlər isə qanun qarşısında cavab verəcək, onlarla qanunun müəyyən etdiyi çərçivədə davranılacaqdır.

Sahibkarların öz vergi öhdəliklərini rahat şəkildə yerinə yetirməsi üçün mövcud sistem, vergi ödəyicilərinə göstərilən xidmətlər ödəyicilərin gözləntilərinə və tələblərinə uyğun qaydada təkmilləşdiriləcəkdir.

Vergilər Nazirliyi tərəfindən «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusunda keçirilmiş konfransda vergilər naziri Mikayıl Cabbarov vurğulayıb ki, artıq mövcud Vergi Məcəlləsi əsasında islahatlar paketinin hazırlanmasına başlanılıb. Bütün şirkətlərdən, biznes nümayəndələrindən və assosiasiyaların təmsilçilərindən xahiş olunub ki, öz rəy və təkliflərini mart ayının 31-dək Vergilər Nazirliyinə təqdim etsinlər.

Konfrans iştirakçıları bu çağırışa cavab olaraq öz təəssüratlarını, rəy və təkliflərini bölüşürlər.

***Mustafa Abbasbəyli, Azərbaycan Sığortaçılar Assosiasiyasının sədri:*** «Bundan sonra Azərbaycanın vergi inzibatçılığında yeni bir səhifə açılacağına çox inanıram və bu sahədə böyük uğurlar qazanacağımızı səbrsizliklə gözləyirəm. Mən konfransdan xoş təəssüratlarla ayrıldım... Həm cənab nazir, həm də tədbirdə çıxış edənlər vergi inzibatçılığı, vergi yığımları ilə bağlı ictimaiyyətə ciddi mesajlar verdilər. Ümumiyyətlə, vergi orqanlarının sahibkarlıq mühitinə baxışı ilə bağlı yeni və çoxdan eşitmək istədiklərimizi eşitdik.

Rəsmi olaraq Vergilər Nazirliyinə ünvanladığımız 14 təklif arasında sahibkarlıq sahəsində, o cümlədən sığorta ilə bağlı təkliflərimiz yer alıb. Fiziki şəxslərin gəlir vergisinin azaldılması, investisiyaya yönəldilən gəlirlərin vergidən azad olunması və digər texniki məsələlərlə bağlı müraciət etmişik. Bu təklifləri irəli sürərkən müxtəlif sahələri təmsil edən iş adamlarının da fikirlərini öyrənib, qərar vermişik. Sahibkarlığın bir çox subyektlərinin eyni fikirdə olması sevindiricidir».

***Zemfira Ağayeva, Qadın Sahibkarlar İctimai Birliyinin sədri:*** «Azərbaycanda qadınların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi və onların ölkə iqtisadiyyatında rolu cəmiyyətimiz üçün ciddi əhəmiyyət daşıyır. Bu gün qadınların 50 faizə yaxını ölkə iqtisadiyyatının, demək olar ki, bütün sahələrində fəal əməklə məşğuldur. Ümumi sahibkarlar arasında qadın sahibkarların xüsusi çəkisi isə 17 faizdən çoxdur. Qadınların öz iqtisadi arzularını həyata keçirmək imkanına malik olduğu ölkələrdə iqtisadiyyat daha da çiçəklənir. Onlar zəruri resurslara malik olarsa, yeni ideya və əzmkarlıqla öz ideyalarını reallığa çevirə bilərlər.

Sahibkar qadınların fəaliyyətinin dəstəklənməsinə vergi orqanları qayğı ilə yanaşırlar. Vergi ödəyicilərinin maraqlarını təmin etmək üçün onlarla birbaşa ünsiyyət yaratmaq, maraqlandıqları suallara aydınlıq gətirmək nəticədə bizim də vergi sisteminə, vergi qanunvericiliyinə olan inamımızı gücləndirir. Onu da qeyd edim ki, regionlarda fəaliyyət göstərən sahibkar qadınların əksəriyyəti öz vergi öhdəliklərini layiqincə yerinə yetirirlər».

***Fərhad Qaraşov, Azərbaycan Nar İstehsalçıları Assosiasiyasının prezidenti:*** «Ölkənin vergi sistemində baş verən struktur dəyişikliklərini, yeni çağırışları səmimi qarşılayır və dəstəkləyirik. Bir iş adami kimi, mən də bu sahədə xeyli yeniliklər, islahatlar gözləyirəm.

Kənd təsərrüfatında çalışan sahibkarlar adından bildirmək istərdim ki, yeni iş yerləri yaradarkən işçilərin qeydiyyatı ilə bağlı problemlər yaranır. Bəzən işçilərin özləri qeydiyyata düşüb əməkhaqqı müqaviləsi bağlamaq istəmirlər, çünki öz fərdi təsərrüfatlarında çalışdıqlarından iş davamiyyətinə əməl etmirlər və bununla da həm vergi, həm də sosial ödənişlər etməkdən yayınırlar. Buna görə də kənd təsərrüfatı sahəsində işləyən sahibkarlar üçün bu məsələlərin həllində hansısa əlverişli mexanizm yaradılmasını təklif edərdim».

***Fərid İsmayılzadə, «Golden Pay» şirkətinin təsisçisi:*** «Mənim təkliflərim ölkəmizdə nağdsız ödənişlərin inkişafı ilə bağlıdır. Burada söhbət bank kartları ilə POS-terminallarda və internetdə ödənişlərdən gedir. Hazırda ölkəmizdə nağdsız ödənişlərin həcmi, aylıq dövriyyəsi 50 milyon manat civarındadır. Bunun 15-20 milyonu internetin, qalanı isə POS-terminalların payına düşür. Əlbəttə, söhbət ölkəmizdə qeydiyyatdan keçmiş Azərbaycan kartları vasitəsilə xaricdə vəsait xərclənməsindən deyil, VÖEN-i olan şirkətlərin ödənişi qəbul etməsindən gedir. Xaricdə xərclənilən məbləğlər o qədər də az deyil. Ölkəmizdə ödəniş qəbul edən təşkilatlar ödənişi kartla qəbul etməmək üçün, demək olar ki, hər şeyi edirlər. Buna əsas səbəb kimi, həmişə rəsmi dövriyyələrin gizlədilməsi qeyd edilir. Biz bununla hər gün qarşılaşırıq. Məncə, bəzi güzəştlər tətbiq edilsə, müəyyən kömək göstərilsə, maarifləndirmə aparılsa, kartla ödənişə bu qədər müqavimət olmaz. Hazırda nağdsız ödənişləri irəliyə çəkən əsas təşkilatlar - banklar, VISA / MasterCard və dövlətdir. Amma burada onlar qədər güclü potensiala malik yeni bir güc də yaranır. Bu, ölkəmizdə lazımi səviyyədə diqqətə alınmayan «fintech»dir. Bir ayağı maliyyədə, bir ayağı da texnologiyalarda olan bu cür şirkətlərə dəstək olarsa, güzəştlər tətbiq edilərsə, əminliklə deyə bilərəm ki, onlar banklarla rəqabətdə önə keçə bilərlər. Ölkəmizdə aparılan nağdsız ödənişlərin internet hissəsinin 75 faizi bizim şirkətin dövriyyəsinə aiddir. İndi şirkətimiz nağdsız ödənişlərin POS-terminal hissəsinə də girməyi düşünür və bu işdə hər 3 mobil rabitə operatorunu da özü ilə aparır. Təklif edəcəyimiz yeni mobil POS-terminallar mövcud POS-terminallardan həm yaxşı işləyir, həm də ucuz başa gəlir. Vergi sistemi ilə inteqrasiya zamanı biz elə edə bilərik ki, kiçik sahibkar çox rahatca nəinki ödənişləri qəbul edər, hətta bir klikə vergisini də ödəyər. Çox istərdim ki, nazirlik bu məsələdə bizimlə əməkdaşlıq etsin».

***Ruslan Quliyev, «Millenium Turizm& Konqres DMC» MMC-nin təsisçisi:*** «Bu gün Azərbaycanda turizmin inkişafı üçün hər cür şərait mövcuddur. Turizm sektoru güzəştli vergi şəraitində fəaliyyət göstərir. Biz bir müddət öncə öz sahəmizlə bağlı təkliflər paketi hazırlayaraq müvafiq qurumlara təqdim etmişik. Sənəddə Azərbaycan turizminin indiki səviyyəsinin qiymətləndirilməsi, bu sahənin inkişafına kompleks yanaşma və təkliflərimiz öz əksini tapıb.

Mərkəzi və Şərqi Avropa ölkələrində olduğu kimi, Azərbaycanın turizm sektoruna vergi güzəştlərinin tətbiq olunmasını təklif etmişik. Məsələn, Rumıniyada turizm şirkətləri əlavə dəyər vergisini 50 faiz güzəştlə ödəyirlər, qonşu Gürcüstanda isə turizmlə məşğul olan şirkətlər 15 il müddətinə ƏDV-dən azad edilib. İndiki dövr üçün vergi dərəcələrinə yenidən baxılması turizm şirkətlərinin xərclərini azalda və bu sahənin inkişafını stimullaşdıra bilər».

***Rəşad Abasov, «ASE ASYA AFRIKA HK və DAS»ın İdarə Heyətinin üzvü:*** «Biz nəqliyyat şirkəti olaraq, ölkədəki nümunəvi vergi ödəyicilərindən sayılırıq. Bugünkü konfransdan sonra vergi sahəsində mühüm irəliləyişlərin olacağını hiss etdik. Düşünürəm ki, vergi sisteminin daha da inkişaf etməsi üçün vergi orqanları vergi ödəyiciləri ilə görüşləri bir qədər də artırmalıdırlar. Lakin bu, vergi ödəyicisinin işinə müdaxilə yox, maarifləndirici görüşlər olmalıdır. Bizim gəlirlərimiz nə qədər artsa, dövlətimizin büdcəsinə vergi daxilolmaları da bir o qədər artar»...

***Telman Əliyev, «Caspian European Club»un sədrinin birinci müavini:*** «İndiyədək Milli Məclisə ünvanladığımız bir sıra təkliflərimizə Vergilər Nazirliyi tərəfindən baxılıb və qanunvericiliyə dəyişiklik hazırlanarkən müəyyən mənada nəzərə alınıb. Hesab edirəm ki, bu formatda əməkdaşlığı davam etdirsək, vergi orqanı-sahibkar münasibətlərindəki çatışmazlıqlar, əngəllər aradan qalxacaq. Konfransda səsləndirilən fikirlərdən belə nəticə çıxardıq ki, vergi sistemində ciddi islahatlar aparılacaq. Ümid edirik ki, bütün bunlar ümumi işimizin xeyrinə olacaq. Biz elə bir şəraitin yaradılmasını gözləyirik ki, şirkətlər dəyişikliklərdən dərhal xəbərdar edilsinlər, buna hazırlıqlı olsunlar və nəticə etibarilə vergiləri könüllü ödəməyə həvəs göstərsinlər.

Hər bir şirkət və ya sahibkarlıqla məşğul olan fiziki şəxs vergi ödəməyi zəruri borcu bilməlidir. Çünki vergi hər birimizin rifahı naminə yığılır, bir çox sosial layihələr vergilər hesabına həyata keçirilir, ordumuz daha da güclənir və s. Mənə elə gəlir ki, verginin toplanma prosesində yeni, innovativ metodlar axtarılmalıdır».

***Natəvan Məmmədova, «AmCham»ın icraçı direktoru:*** «Vergilər Nazirliyi vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsində, vergi ödəyicilərinə yeni xidmətlərin təqdim edilməsində, bütövlükdə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində sahibkarların ictimai təşkilatları ilə müxtəlif müzakirələrin keçirilməsinə böyük önəm verir, qanunvericiliyə dəyişikliklər edilərkən ölkədə fəaliyyət göstərən yerli və xarici biznes strukturlarının rəylərini nəzərə almağa, hər bir təklifə diqqətlə yanaşmağa çalışır. Təmsil etdiyim qurum Vergilər Nazirliyi ilə əməkdaşlığın səviyyəsindən məmnundur və biz bu əlaqəni davam etdirmək arzusundayıq. Azərbaycan iqtisadiyyatının hər bir sahəsində fəal olan yüzlərlə xarici və yerli şirkəti özündə birləşdirən «AmCham» ölkədə biznes mühitini yaxşılaşdıran mükəmməl vergi qanunvericiliyinin işlənib hazırlanmasında maraqlıdır. Vergilər Nazirliyi ilə əməkdaşlığın nəticəsi olaraq, qurum tərəfindən artıq neçə ildir ki, vergi partnyorluğu mövzusunda konfranslar təşkil edilir, vergitutma sahəsində aktual mövzular üzrə müzakirələr aparılır, konkret təkliflər irəli sürülür.

«AmCam»da vergi və gömrük komitələri fəaliyyət göstərir. Ənənəvi olaraq komitələrimizlə Vergilər Nazirliyi arasında çox gözəl münasibətlər qurulub və biz bu münasibətləri inkişaf etdirmək niyyətindəyik. İnanırıq ki, qanunvericiliyə təklif olunan dəyişikliklər - vergi inzibatçılığı, vergi qanunvericiliyi sahələrində olan hər hansı bir yenilik ictimaiyyətlə müzakirə olunacaq. İnanırıq ki, Vergilər Nazirliyi biznes mühiti üçün açıq fəaliyyət göstərəcək, sahibkarların maraqlarını öndə tutacaq, hüquqlarını qoruyacaq. Bu, tərəflərin hamısı üçün çox önəmlidir. Müzakirələr zamanı ortaya çıxan anlaşılmazlıqların öncədən həlli sonradan konkret işə keçərkən yarana biləcək problemlərin qarşısını alır».

***Mövlan Paşayev, «PricewaterhouseCoopers» şirkətinin idarəedici partnyoru:*** «2018-ci ildən Azərbaycanın vergi sistemi və idarəçiliyində yeni bir mərhələyə qədəm qoyulur. Biz Vergilər Nazirliyi ilə daim əməkdaşlıq edirik, görüşlərimiz, müzakirələrimiz olur. Əlbəttə ki, yeni islahatları dəstəkləyirik. Əsas məsələ irili-xırdalı vergi ödəyicilərini yenidən motivasiya etmək, «kölgə iqtisadiyyatı»nın qarşısını almaq və ya meydanını daraltmaq, bütün vergi ödəyiciləri üçün eyni şərtlər yaradan vergi sistemi qurmaqdır. Hər kəsə eyni standartlar, eyni yanaşma lazımdır. Bu proses neçə illərdir ki, gedir, mənə elə gəlir, bu il daha da intensivləşdiriləcək. Elə etmək lazımdır ki, islahatlar strateji yol xəritələrində göstərildiyi kimi, Vergilər Nazirliyinin fəaliyyəti tam şəffaflaşdırılsın. Nəticədə həm dövlətimizin büdcəsi, həm də sahibkarlarımız qazansın»...

***Yana Krimpe, «B.EST Solutions»un rəhbəri:*** «İnnovasiyaların tətbiqi və «ASAN imza» sertifikatlarının alınması sahəsində uzun illərdir ki, Vergilər Nazirliyi ilə əməkdaşlıq edirik. Biz, ilk növbədə, innovativ vergilərin tətbiq olunmasının tərəfdarıyıq. Şirkətimiz Vergilər Nazirliyi və mobil operator tərəfindən verilən və elektron xidmət istifadəçisinin autentifikasiyasını, sənədin elektron imzalanmasını və imzalayan şəxsin şəxsiyyətinin müəyyən olunmasını təmin edən xidmətlər göstərir. «ASAN imza» e-xidmətlərə daxil olan və rəqəmsal imzalar edən zaman kimliyinizi təsdiqləmək üçün mobil identifikasiyadır və mövcd e-xidmətlərin hamsından istifadəni mümkün edir.

Vergilər Nazirliyinin avtomatlaşdırılmış vergi sistemi sahəsində, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı üçün görülən işləri təqdirəlayiq hesab edirəm və ümidvaram ki, tərəfdaşlığımız bundan sonra daha yeni keyfiyyətlər qazanacaqdır».

***Erdinc Gözəl, ATİB İdarə Heyətinin üzvü:*** «Azərbaycanda hər keçən gün vergi inzibatçılığı, vergi qanunvericiliyi sahəsində müəyyən dəyişikliklər, inkişafa doğru meyillər müşahidə olunur. Yeni addımlar sayəsində vergi sistemi mükəmməlləşir, vergi ödəyiciləri arasında könüllü ödəmələrin faizi yüksəlir. Biz ölkənin ən önəmli vergi ödəyicilərindən biriyik və işimizi tam şəffaf qurmuşuq. İstərdik ki, bütün sistem eyni şəffaflıq və aydınlıqla idarə olunsun. Vergilər Nazirliyinin bu istiqamətdə görmək istədiyi tədbirləri, islahatları yüksək qiymətləndiririk. Hazırda görülən işlər yaxın zamanlarda çox pozitiv dəyişikliklərin olacağından xəbər verir. Alınan qərarların icrasına başlanılır və belə görünür ki, işlər yerinə oturduqca, vergi sistemi daha mükəmməl olacaqdır».

***Osman Gündüz, «Multimedia» İnformasiya Sistemləri Mərkəzinin rəhbəri:*** «Vergilər Nazirliyinin onlayn şəffaflıq və informasiya açıqlığı sahəsində öndə gedən dövlət qurumlarındandır. Burada əsas rol oynayan nazirliyin internet resursları idi. Biz uzun illərdir dövlət orqanlarının qanunvericilikdə nəzərdə tutulan informasiyaları necə açıqlamalarının monitorinqini aparırıq. Monitorinqin 64 parametrinə görə, Vergilər Nazirliyi həmişə fərqlənib. Amma apardığımız son monitorinqlərin nəticələrinə əsasən deyə bilərəm ki, nazirliyin internet resurslarında problemlər yaranıb. Artıq Vergilər Nazirliyinin internet resursları, axtarış sistemi, oradakı rahatlıq, informasiyanın əldə olunması ilə bağlı məsələlər yenilənməlidir. Rahatlığı əldə etmək üçün internet resurslarını yeni texnologiyalar üzrə təkrar qurmaq və bununla da informasiyalara girişi asanlaşdırmaq lazımdır».

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Regionlarda sərmayə qoyuluşu artır

**Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda bildirib ki, bu il ölkə iqtisadiyyatına ən azı keçən ilin səviyyəsində sərmayə qoyuluşu nəzərdə tutulur. Qeyd edək ki, ötən il bütün maliyyə mənbələrindən əsas kapitala 15 milyard 550,8 milyon manat vəsait yönəldilmişdir. Dövlət başçısı regionlara sərmayə qoyuluşunun artırılmasının vacibliyini vurğulayaraq bildirib ki, yerli icra orqanları bu işlərdə daha fəal çalışmalı və münbit investisiya mühiti yaradaraq sərmayələrin bölgələrə cəlb olunmasını təmin etməlidirlər.**

Ötən il Salyan, Qəbələ, Qazax, Lənkəran, Abşeron, Ağstafa, Sumqayıt, Xaçmaz, Gəncə, İsmayıllı rayonlarına daha çox sərmayə qoyulub. Bu il isə investisiya tutumu 100 milyon manatdan çox olan sərmayə layihələri beş regionda həyata keçiriləcək: Abşeron rayonu (250 milyon manat), Sumqayıt şəhəri (186 milyon manat), Saatlı rayonu (152 milyon manat), Salyan rayonu (126 milyon manat) və Qəbələ rayonu (116 milyon manat) rayonları. Gəncə şəhəri üçün nəzərdə tutulan investisiya həcmi 98 milyon manatdır.

Regionlara qoyulan investisiyalar, həyata keçirilən layihələr beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına şərait yaradır. Ötən il ərazi vergi orqanlarında qeydiyyata alınmış 100 mindən çox vergi ödəyicisinin 4686-sı hüquqi şəxs olub. Qeydiyyata alınmış və fəaliyyəti bərpa edilmiş obyektlərin (təsərrüfat subyektlərinin) sayı fəaliyyətini dayandırmış və ləğv edilmiş obyektlərin sayından çoxdur: bunların arasındakı fərq 9484 olub.




> Bu gün respublikanın bir neçə şəhər və rayonu öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan vergilər hesabına formalaşdırır və qarşıya qoyulmuş əsas hədəflərdən biri gələcəkdə bu cür bölgələrin sayının artırılmasıdır

Ötən il regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinin ümumi dövriyyəsi 2016-cı illə müqayisədə 28,7% artıb.Ticarət üzrə dövriyyədə 29,8%, xidmət sahəsi üzrə dövriyyədə isə 35,8% artım olub. 2017-ci ildə 38.165 vergi ödəyicisi fəaliyyətini bərpa edib ki, bu da bölgələrdə iqtisadi aktivliyin xeyli artdığını göstərir. Bir amili də nəzərə almaq lazımdır ki, vergi ödəyicilərinin dövriyyəsindəki artım kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vergi ödəyicilərinin, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilməsi şəraitində baş verir.

«Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası nəticəsində qoyulan sərmayələr, yeni yaradılan müəssisələr hesabına iqtisadi fəallığın yüksəlməsi ərazilər üzrə daxilolmalarda da özünü göstərir. 2017-ci ildə bölgələr üzrə müəyyən edilmiş 598,9 milyon manat proqnoz tapşırığına qarşı dövlət büdcəsinə 626,3 milyon manat vəsait daxil olub, proqnoza 104,6% əməl edilib. 10 il əvvəl bu rəqəm 86,6 milyon manat təşkil etmişdi. Başqa sözlə desək, son 10 il ərzində regionlar üzrə vergi daxilolmaları 7 dəfə artıb.

Xüsusi vurğulamağa dəyər ki, dövlət proqramlarının uğurlu icrasının nəticəsi olaraq, bu gün respublikanın bir neçə şəhər və rayonu öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan vergilər hesabına formalaşdırır və qarşıya qoyulmuş əsas hədəflərdən biri gələcəkdə bu cür bölgələrin sayının artırılmasıdır.

Regionlara xarici sərmayəçilərin cəlb edilməsi üçün gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır. İndi üstünlük verilən vəzifələrdən biri də regionlarda yaradılan aqroparklara xarici sərmayələrin cəlb edilməsidir. Gələcəkdə 28 rayonda 43 aqroparkın yaradılması nəzərdə tutulur, onların 27-si bitkiçilik, 16-sı isə heyvandarlıq üzrə fəaliyyət göstərəcək. Artıq bir neçəsi fəaliyyətə başlayan bu müəssisələrdə ət, quş əti, süd, yem, buğda, arpa, soya istehsalı da nəzərdə tutulur. Həmin aqroparkların inkişafı və rahat fəaliyyəti üçün 183 min hektar torpaq sahəsi də ayrılıb. Bu il Mingəçevir Yüngül Sənaye Parkının ilk zavodlarının açılışı gözlənilir. Neftçala Sənaye Məhəlləsi artıq fəaliyyətə başlayıb və Masallı, Hacıqabul, Sabirabad sənaye məhəllələrinin bu il fəaliyyətə başlayacağı gözlənilir.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramovun fikrincə, biznesin paytaxtdan regionlara köçürülməsi, regionlarda azad iqtisadi zonaların yaradılması, sərmayə axınının gücləndirilməsi son nəticədə Bakının da vergi yükünün azalmasına gətirib çıxara bilər. Hazırda paytaxt üzrə vergi dərəcələri regionlarla müqayisədə daha yüksəkdir. Məsələn, sadələşdirilmiş vergi dərəcəsi Bakıda regionlara nisbətən iki dəfəyə qədər çoxdur. Biznesin paytaxtdan regionlara köçürülməsi istiqamətində atılmalı olan əsas addımlardan biri də bölgələrdə biznesin liberallaşdırılmasının davam etdirilməsidir.

V. Bayramovun fikrincə, sərmayə qoyuluşunu artırmaq üçün regionları əhatə edəcək xüsusi azad iqtisadi zonaların yaradılmasına ehtiyac var. Bu yolla bölgələrdə biznesin daha da genişlənməsi, regionlardan vergi daxilolmalarının artması, eləcə də paytaxtla bölgələr arasındakı vergi yükü fərqinin azaldılması mümkün ola bilər.

**Rəşad SADIQOV**

# İnvestorların hüquqlarının qorunması vacib şərtdir

Prezident İlham Əliyev «İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında» sərəncam imzalayıb.

Sənəddə ölkə iqtisadiyyatına daha çox investisiya cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Dövlət başçısı iqtisadiyyata qoyulan investisiyanın həcminin artırılması məqsədilə bu sahədə islahatların genişləndirilməsini, xüsusilə özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes və investisiya mühitinin yaxşılaşdırılmasını, həmçinin investisiyaların qorunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsini əsas məqsəd kimi qarşıya məqsəd qoyub.

> “ Yeni qanun layihəsində xarici sərmayələrin dövlət təminatının gücləndirilməsi, investisiya imkanlarının genişlənməsinə imkan verən çərçivənin müəyyənləşdirilməsi və digər məqamların yer alması mühüm əhəmiyyət kəsb edir

İqtisadiyyat Nazirliyinin məlumatına görə, «İnvestisiya fəaliyyəti haqqında» və «Xarici investisiyanın qorunması haqqında» qanunların əsasında beynəlxalq təcrübə nəzərə alınmaqla yeni qanun layihəsi hazırlanacaq. Sənəd investisiya fəaliyyəti sahəsində bütün iqtisadi tərəflərin təklifləri nəzərə alınmaqla tərtib olunacaq. Burada vergi, gömrük, fiskal, maliyyə, biznes mühiti və digər məsələlər əhatə ediləcək. Sənəddə xarici investorların hüquqlarının qorunması mexanizmləri, onlara dövlət zəmanəti verilməsi qaydası, mübahisələrin danışıqlar, məhkəmə, həmçinin arbitraj yolu ilə həlli üsulları (beynəlxalq arbitraj qaydalarının müddəaları nəzərə alınmaqla), investorlara vurulmuş zərərin, o cümlədən itirilmiş mənfəətin qaytarılması qaydası və digər faktorlar da öz əksini tapacaq.

İqtisadçı Orxan Məmmədovun sözlərinə görə, xarici investorlar tərəfdaşlıq zəminində ölkədə əlverişli investisiya qorunma sisteminin mövcudluğuna xüsusi diqqət ayırırlar. Ölkədə inhisarçılıq, haqsız rəqabət olduğu halda, xarici sərmayələrin marağı da az olur: «Son illər Azərbaycanda azad rəqabət mühitinin təmin olunması istiqamətində davamlı tədbirlər görülüb, azad biznesə maneə yaradan amillər aradan qaldırılıb. Sahibkarlıq sahəsində yoxlamalar dayandırılıb, lisenziya və qeydiyyat sistemi asanlaşdırılıb, səmərəli vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Bununla yanaşı, rəqabət qabiliyyətinin artırılması üçün biznes sektorunda bəzi islahatların aparılmasına ehtiyac var. Ölkə daxilində istehsalın stimullaşdırılması, həm yerli, həm də xarici biznesin daha yaxşı və rəqabət şəraitində işləməsi, eləcə də istehsalçıların maraqlarının qorunması baxımından hüquqi qanunvericilikdə dəyişikliklərin aparılması zəruridir. Məhz bu baxımdan, investisiya fəaliyyəti ilə bağlı qanun, yaxud məcəllənin qəbul olunması vacibdir. Yeni qanun layihəsində xarici sərmayələrin dövlət təminatının gücləndirilməsi, investisiya imkanlarının genişlənməsinə imkan verən çərçivənin müəyyənləşdirilməsi və digər məqamların yer alması mühüm əhəmiyyət kəsb edir. 2025-ci ilədək qarşıya qoyulmuş məqsədlərdən biri də məhz xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsidir. Bu sahədə aparılacaq islahatlar iqtisadiyyatda özəl investisiyaların payının artmasına təkan verəcəkdir».

Mütəxəssisin fikrincə, sənədin qəbul olunması sayəsində haqsız rəqabət, təbii və süni inhisarçılığın aradan qaldırılması ilə yanaşı, azad rəqabət mühiti yaranacaq ki, bu da iqtisadi inkişaf, keyfiyyətli istehsal, işsizliyin aşağı düşməsi, neft sektorundan asılılığın aradan qaldırılması, biznes mühitinin liberallaşması kimi bir çox problemlərin həllində mühüm rol oynaya bilər.

İqtisadiyyat Nazirliyinin şöbə müdiri Zaur Əliyev hesab edir ki, xarici investorların hüquqlarının daha etibarlı qorunmasına yönəldilən tədbirlər Azərbaycanla tərəfdaşlığa marağı daha da artıra bilər. Son 14 ildə ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 8 mini ötüb. Onların sırasında Böyük Britaniya, ABŞ, Türkiyə, Rusiya, Norveç, Yaponiya, Cənubi Koreya, Fransa kimi ölkələrin investorları üstünlük təşkil edir. Xarici sərmayəçilərin qeyri-neft sektorunda həyata keçirdikləri layihələr ticarət və xidmət, tikinti, sənaye, nəqliyyat, logistika sektorlarıdır: «Dövlət investisiyalarla bağlı zəmanət mexanizmini tətbiq etməklə yeni sərmayəçilər ordusu cəlb etmiş olacaq. Azərbaycan hökumətinin 2018-ci il və sonrakı 3 il üzrə hazırlanmış iqtisadi proqnoz göstəricilərinə əsasən, investisiyalar sahəsində yürüdüləcək siyasət xarici sərmayə qoyuluşlarının artımına səbəb olacaq. Bu il iqtisadiyyata 15,5 milyard manatdan artıq sərmayə qoyuluşu gözlənilir ki, onun 7 milyard 713,6 milyon manatını (48,5%) xarici investisiyalar təşkil edəcək. Xarici investisiyalarda real artım 13,5% proqnozlaşdırılır».

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən «Gulfood 2018» Beynəlxalq Ərzaq Sərgisində Azərbaycan «Made in Azerbaijan» vahid ölkə stendi ilə təmsil olunur.

Fevralın 21-də Azərbaycan Respublikası Hesablama Palatası və Rusiya Federasiyası Hesablama Palatası arasında ikitərəfli əməkdaşlıq çərçivəsində sosial təminat üzrə ödənişləri həyata keçirən fondların auditi, eləcə də tibb, təhsil, mədəniyyət, kinematoqrafiya və tibbi sığorta sahələrinə ayrılmış büdcə vəsaitlərinin auditi üzrə təcrübə mübadiləsi aparılacaq.

Rusiya-Gürcüstan-Azərbaycan-Rusiya elektrik enerjisi şəbəkələrinin əlaqəli şəkildə idarə olunması müzakirə edilib.

Bu ilin may ayında Bakıda «IT və IT Təhlükəsizlik üzrə konfrans» keçiriləcək.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✘ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✘ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✘ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✘ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✘ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✘ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✘ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Pensiyaçıların sosial maraqları diqqətdə saxlanılır

**Ölkə başçısının 9 fevral 2018-ci il tarixli sərəncamı pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti mühüm addımdır. Sənəd pensiya təminatında artım dinamikasının, ümumən əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlərin uğurla davam etdirildiyini təsdiq edir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) bildirilib ki, ölkədə 2006-cı il yanvarın 1-dən beynəlxalq standartlara uyğun müasir sığorta-pensiya sisteminin tətbiqi ilə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsinə başlanılıb və 2007-ci ildən indiyədək dövlət başçısı tərəfindən əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi ilə bağlı 11 sərəncam verilib. «Əmək pensiyaları haqqında» Qanuna edilmiş və 2017-ci il iyulun 1-dən tətbiqinə başlanılmış mütərəqqi dəyişikliklər isə bu sistemin tam sığorta prinsipləri üzərində formalaşmaqla uzunmüddətli və etibarlı maliyyə dayanıqlığına, bazar iqtisadiyyatı şəraitində sosial rifah tələblərinə uyğun layiqli pensiya təminatı imkanlarının artırılmasına xidmət edir. Həmin dəyişikliklər uzun illər ölkəmizin pensiya qanunvericiliyində mövcud olmuş «əmək pensiyasının baza hissəsi» anlayışının aradan qalxmasına, pensiyaların baza və sığorta hissələrinin birləşdirilərək vahid məbləğ kimi müəyyən edilməsinə şərait yaradıb. Beləliklə, hər ilin əvvəlində əmək pensiyalarının yalnız sığorta hissəsinin əvvəlki ilin rəsmi inflyasiya göstəricisi əsasında artırılması həyata keçirildiyi halda, bu ildən əmək pensiyalarının ümumi məbləğinin ölkə üzrə orta aylıq əməkhaqqının əvvəlki ildəki artım faizinə uyğun indeksləşdirilərək artırılması mexanizminə keçilib. Bu tədbir pensiyaçı vətəndaşların sosial maraqlarının daha dolğun təmin olunmasına imkan verir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2017-ci ildə ölkəmizdə orta aylıq nominal əməkhaqqının illik artım tempi 5,7 faiz səviyyəsində müəyyən edilib. Respublikamızda əmək pensiyalarının ümumi məbləği də 2018-ci il yanvarın 1-dən hesablanaraq həmin göstəriciyə uyğun, yəni 5,7 faiz artırılacaq. Bununla bağlı ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondu artıq müvafiq işlərə başlayıb. 2018-ci il yanvarın 1-ə olan vəziyyətə əsasən, ölkədə 1 milyon 318 min 434 nəfər əmək pensiyası alır. Əmək pensiyalarının indeksləşdirilərək artırılması pensiyaçıların 1 milyon 236 min nəfərinə və ya 94 faizinə şamil olunur: dövlət qulluqçusu, hərbi qulluqçu, Mərkəzi Seçki Komissiyasının üzvü, Hesablama Palatasının üzvü, deputat və s. kateqoriyalardan olan şəxslər kimi pensiyaya çıxmış vətəndaşların pensiyalarına bu artımlar tətbiq olunmur. Bundan başqa, əmək pensiyalarının sığorta hissəsinə qanunun 19-cu maddəsində mütləq rəqəmlərlə ifadə olunan əlavələr üçün də bu artım nəzərdə tutulmayıb.

2018-ci il yanvarın 1-ə olan vəziyyətə əsasən, ölkədə əmək pensiyalarının orta aylıq məbləği 208,36 manat, yaşa görə pensiyanın orta aylıq məbləği isə 233,68 manat təşkil edir. Vətəndaşların əmək pensiyalarının məbləğləri müxtəlif olduğundan, pensiyalarda artımların məbləği də fərqli olacaq. Artımın pensiyanın bütün məbləğinə tətbiq edilməsi prinsipi aşağı məbləğdə pensiya alanlar üçün daha effektivliyi ilə diqqəti çəkir.

> “Əmək pensiyalarının indeksləşdirilərək artırılması pensiyaçıların 1 milyon 236 min nəfərinə və ya 94 faizinə şamil olunur: dövlət qulluqçusu, hərbi qulluqçu, Mərkəzi Seçki Komissiyasının üzvü, Hesablama Palatasının üzvü, deputat və s. kateqoriyalardan olan şəxslər kimi pensiyaya çıxmış vətəndaşların pensiyalarına bu artımlar tətbiq olunmur

2018-ci il yanvarın 1-dən əmək pensiyalarının indeksləşdirilməsinə hər ay təqribən 13,78 milyon manat, il ərzində isə 165,4 milyon manat əlavə vəsait yönəldiləcəkdir. Sığortaolunanlar üzrə ödənilən və onların fərdi uçot sistemindəki fərdi hesablarının sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğlərinin də indeksləşdirilməsi aparılacaq. Sığorta-pensiya sistemi elektron infrastruktur üzərində fəaliyyət göstərir və hər iki proses, yəni əmək pensiyalarının və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilmə ilə artımı avtomatlaşdırılmış qaydada həyata keçirilir.

**AYTƏN**

# Bankların sağlamlaşdırılması davam etdiriləcək

**Maliyyə Bazarlarına Nəzarət Palatası 2018-ci ildə bank sektorunun sağlamlaşdırılması, sığorta sektorunun təkmilləşdirilməsi, qiymətli kağızlar bazarlarının inkişaf etdirilməsi ilə bağlı yeni mexanizmlər tətbiq etmək niyyətindədir.**

Əsas tədbirlərdən biri ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırılmasıdır. Bu sahədə tədbirlər çərçivəsində bankların qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi qaydaları hazırlanacaq. Ötən il bankların sağlamlaşdırılması tədbirlərinə uyğun olaraq «Banklar haqqında» Qanuna dəyişikliklər edilib ki, bu da ödəmə qabiliyyətini itirmiş bankların problemlərinin həlli istiqamətində hüquqi mexanizmlər yaradır.

Bank sahəsi üzrə mütəxəssis Elçin Qədimov bildirir ki, dövlət sistem əhəmiyyətli banklara dəstək verməklə yeni alətlər tətbiq edəcək. Bu zaman bankların maliyyə vəziyyəti, likvidlik problemləri, bazardakı potensialı və digər amillər nəzərə alınacaq. Bu məqsədlə bankın öhdəlikləri könüllü restrukturizasiya olunacaq. Ödəmə qabiliyyətini itirmiş və ya itirmək təhlükəsi olan bankın təxirə salınmadan və mümkün qədər az məsrəflə maliyyə bazarından kənarlaşdırılması məqsədilə müvafiq nəzarət orqanı tərəfindən investorlara satılması, digər banka qoşulması, aktiv və öhdəliklərinin köçürülməsi, «körpü bank»ın yaradılması həyata keçiriləcək. Kapital ehtiyatları zəif olan bankların əvvəlki kimi könüllülük əsasında deyil, icbari qaydada birləşdirilməsi aparılacaq. Yeniliyə əsasən, bankların sağlamlaşdırılması əsas iki formada aparıla bilər: sağlamlaşdırılmalı olan bank səhmlərinin 75%-i dövlətə məxsus banka ya birləşdirilə, ya da satın alına bilər. Dövlət bankın səhmlərinin 50%-i həcmində kapital qoyuluşu etməklə, proses başa çatdıqdan sonra həmin hissəni başqa investora təklif edir.

> **Dövlət bankın səhmlərinin 50%-i həcmində kapital qoyuluşu etməklə, proses başa çatdıqdan sonra həmin hissəni başqa investora təklif edir**

Bankların sağlamlaşdırılması 2018-ci ildən sonra qarşıdakı 2 ildə də davam etdiriləcək. Bu müddət ərzində likvidlik və kapitallaşma problemlərinin həll edilməsi, hüquqi və tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi nəzərdə tutulur.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Şamil Ərəbov hesab edir ki, bankların sağlamlaşdırılması prosesində vergi güzəştlərinin də mühüm rolu var. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırma tədbirləri çərçivəsində onların qeyri-işlək aktivləri ötən il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilib. Eyni zamanda, 2018-ci il yanvarın 1-dən tətbiq olunan vergi amnistiyası çərçivəsində bir neçə bankın vergi borcları silinib. Bu addım indiki mərhələdə sistem əhəmiyyətli bankların kapital fondunun daha da möhkəmlənməsinə səbəb olacaq, ödəmə qabiliyyətini itirmiş bankların yenidən bank bazarında aktiv maliyyə vasitəçiliyini təmin etməsinə imkan verəcək.

Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev isə bildirib ki, 2018-ci ildə bank sektorunda sağlamlaşdırma tədbirlərinin davam etdirilməsi ilə yanaşı, maliyyə bazarlarında iştirakçı olan yeni qurumların fəaliyyəti təmin olunacaq. Yaxın günlərdə fəaliyyətə başlayacaq Özəl Kredit Bürosu maliyyə xidmətləri infrastrukturunun inkişafına əhəmiyyətli dəstək göstərəcək. Yeni strukturun təsis olunması banklarla yanaşı, maliyyə sektorunun digər iştirakçılarının, eyni zamanda bank olmayan kredit təşkilatları, kommunal ödəniş sistemləri, mobil operatorlar və iri pərakəndə şəbəkələrin də fəaliyyətinin stimullaşmasına töhfə verəcək: «2018-ci ildə fəaliyyətə başlayacaq qurumlardan biri də Kredit Zəmanət Fondunun təsis edilməsidir. Fondun yaradılması real sektorla maliyyə sektoru arasındakı iqtisadi tarazlığın bərpa olunmasına, maliyyə risklərinin bölünməsinə, bankların dayanıqlığının və real sektora maliyyə axınının gücləndirilməsinə, eləcə də əks-dollarlaşmanın stimullaşdırılmasına nail olmaq üçün mühüm addımdır. Fond maliyyə inklüzivliyinin artırılması, maliyyə xidmətlərinin çatdırılması kanallarının diversifikasiyasını, habelə sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsini, maliyyə xidmətlərindən istifadənin yaxşılaşdırılmasını təmin edəcək».

Bütün bunlar ölkədə iqtisadi fəaliyyətin dəstəklənməsinə, sahibkarlığın inkişafına, məşğulluğun artırılmasına, ev təsərrüfatlarının istehlak imkanlarının genişlənməsinə və gəlir bərabərsizliyinin aradan qaldırılmasına əlavə dəstək verəcək.

**E.CƏFƏRLİ**

# Banklar üzrə faiz dərəcələri aşağı salındı

**Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə fevralın 12-dən uçot dərəcəsi 15%-dən 13%-ə, faiz dəhlizinin yuxarı həddi isə 18%-dən 16%-ə endirilib.**

Faiz dəhlizinin parametrləri haqda qərar faktiki orta illik inflyasiyanın birrəqəmli trayektoriyaya daxil olması, inflyasiyanın azalmasına dair proqnozlar və xarici balansın yaxşılaşması nəzərə alınmaqla qəbul edilib. Faiz parametrlərinin dəyişdirilməsi haqqında qərar qəbul edilərkən xarici və daxili mühitdə baş verən bir sıra proseslər nəzərə alınıb. Mərkəzi Bank (MB) bu addımın atılmasına, ilk növbədə, xarici mühit faktorunu nəzərə alaraq qərar verib. Həyata keçirilən dərin makroiqtisadi manevr və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatlar, eləcə də dünya bazarında neftin qiymətinin yüksəlməsi Azərbaycanın tədiyyə balansını yaxşılaşdırıb, bununla da ölkənin valyuta daxilolmaları artıb, valyuta bazarında vəziyyət sabitləşib. Belə bir şəraitdə aparılan makroiqtisadi siyasət tədbirləri nəticəsində manatın dollara qarşı məzənnəsi 4% möhkəmlənib. Milli valvutanın sabitləşməsi dollarlaşma proseslərinin azalmasına, maliyyə sabitliyinə və inflyasiya gözləntilərinə də müsbət təsir edib.

Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmovun sözlərinə görə, 2017-ci ilin yekunu üzrə tədiyyə balansının cari əməliyyatlar hesabında ÜDM-in 5%-i qədər profisit yaranıb. Xarici ticarət balansının profisiti isə 5 milyard dollar təşkil edib ki, bu da ötən illə müqayisədə 10 dəfə çoxdur. İxrac 52%, o cümlədən qeyri-neft ixracı 23% artıb. Ticarət balansı ilə yanaşı, xidmətlər, eləcə də ilkin və təkrar gəlirlər balansında da yaxşılaşma müşahidə olunub, nəticədə kapital və maliyyənin hərəkəti hesabında müsbət saldo yaranıb. 2017-ci ildə makroiqtisadi sabitliyin güclənməsi iqtisadi aktivliyin canlanmasına müsbət təsir edib, qeyri-neft sektorunda 2,7%-lik iqtisadi artım baş verib. O cümlədən qeyri-neft sənayesində 3,7%, kənd təsərrüfatında 4,2% artım olub. İqtisadi artım dövlətin investisiya xərclərinin və qeyri-neft ixracının artması, habelə istehlakçı inamının yüksəlməsi ilə dəstəklənib. Bu faktor faiz dəhlizinin aşağı salınması üçün ciddi iqtisadi əsaslar yaradıb.

İqtisadiyyatın pula tələbinin təmin edilməsi və likvidliyin effektiv idarə olunması məqsədilə MB müxtəlif müddətli (7 günədək, 14 günlük, 28 günlük və s.) çərçivə və açıq bazar əməliyyatlarını aktiv saxlayır. İqtisadiyyatda kredit aktivliyinin bərpa olunmaması şəraitində bank sistemində akkumulyasiya olunan izafi likvidlik bankın sterilizasiya alətlərinə də yüksək tələbi şərtləndirir. MB-nin qiymətləndirmələrinə görə, inflyasiyanın səviyyəsi ötən illə nisbətdə aşağı düşməyə başlayıb və antiinflyasiya meyilləri bundan sonra da davam edəcək. 2018-ci ilin sonuna illik inflyasiyanın elan edilmiş hədəf çərçivəsində olması potensialı çox əhəmiyyətlidir. Qarşıdakı dövrdə inflyasiyanın birrəqəmli səviyyədə saxlanılması inflyasiya gözləntilərinin azalmasından və bunun iqtisadi konyunktur dəyişmələrə qarşı həssaslığının aşağı düşməsindən asılı olacaq. 2018-ci ildə iqtisadi artım üzrə pozitiv dinamikanın qorunacağı gözlənilir ki, bu amil də bank sektorunda faiz dəhlizinin sabitliyinə mühüm təsir göstərəcək.

E.Rüstəmov bildirib ki, Mərkəzi Bank bundan sonra da iqtisadiyyatda və maliyyə bazarlarında baş verən prosesləri diqqətlə izləməyə davam edəcək və öz səlahiyyətləri çərçivəsində sərəncamında olan alətlərlə qiymətlərin sabitliyini təmin etməyə çalışacaqdır. Cari ilin birinci rübü üzrə ölkədəki sosial-iqtisadi vəziyyət, xarici ticarət, maliyyə bazarı, ixrac əməliyyatları və digər faktorlar təhlil edildikdən sonra aprel ayında faiz dəhlizinin parametrlərinə yenidən baxılacaq. Proqnozlara və xarici mühitdə pozitiv meyillərin əldə edilməsinə uyğun olaraq, faiz dərəcələrinin real səviyyəsinin daha da azaldılması istisna olunmur.

**ELBRUS**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin fevral və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin fevral və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Müqaviləsiz işçilərə görə vergi güzəştləri ləğv ediləcək

Rusiya Dövlət Dumasının Əmək komitəsinin üzvü Oleq Şeinin hazırladığı qanun layihəsinə əsasən, öz işçiləri ilə əmək münasibətlərini rəsmiləşdirməyən müəssisələr vergi güzəştlərindən məhrum olunacaqlar. «Qanun layihəsinin mahiyyəti çox sadədir: yoxlama nəticəsində işçi heyətinin 10 faizindən və ya 100 nəfərindən çoxu qeyri-rəsmi şəkildə işlədiyi aşkara çıxarılan müəssisə üçün bütün vergi güzəştlərini ləğv etmək lazım gələcək. Qoy həmin müəssisə heç bir güzəştdən istifadə etmədən öz vergilərini adi qaydada ödəsin. Çünki vergi ödəməkdən yayınmaya şərait yaratmaq cəzasız qalmamalıdır», - layihə müəllifi qeyd etmişdir.

Müxtəlif mənbələrin qiymətləndirmələrinə görə, hazırda Rusiya Federasiyasında 23 milyondan 35 milyon nəfərədək insan əmək münasibətlərini rəsmiləşdirmədən fəaliyyət göstərir ki, bunun sayəsində büdcə hər il 4 trilyon rubl (təxminən 117 milyon manat) vəsait itirir. Bu qanun pozuntusuna görə cərimə fiziki şəxslər üçün 5 min rubl (146 manat), hüquqi şəxslər üçünsə 50 min rubl (1460 manat) müəyyənləşdirilib.

Qanun layihəsinin hökumətin təsdiqindən sonra fevralın sonuna qədər Dövlət Dumasına təqdim ediləcəyi gözlənilir.

# Avstraliya mənfəət vergisini azaltmaq niyyətindədir

ABŞ və Böyük Britaniya hökumətlərindən sonra Avstraliyanın da hakim dairələri iqtisadiyyatın artım tempini yüksəltmək və bunun üçün mənfəət vergisini azaltmaq planını gündəliyə gətirmişdir. Hökumət mənfəət vergisinin dərəcəsini 30 faizdən 2025-ci ilə qədər tədricən 25 faizə endirməyi planlaşdırır.

Parlamentin aşağı palatası hökumətin planını 71 səsə qarşı 75 səslə qəbul etmişdir. Lakin qanun layihəsinə Senatda o qədər də rəğbətlə yanaşmırlar.

Layihənin əleyhdarlarının rəyinə görə, belə bir addım atılsa, büdcə 65 milyard Avstraliya dolları (51 milyard ABŞ dolları) vəsait itirməli olacaq və büdcədə kəsir artacaq. Hələlik ölkə parlamenti illik gəliri 50 milyon Avstraliya dollarından (39,3 milyon ABŞ dolları) az olan şirkətlərin mənfəət vergisinin azaldılması barədə qanun qəbul etmişdir.

Maliyyə naziri Skott Morrison parlamenti mənfəət vergisinin dərəcəsini aşağı salmaq barədə qanun layihəsinə səs verməyə dəvət etmişdir. Onun sözlərinə görə, büdcə kəsirinin yüksək olmasına baxmayaraq, artıq Böyük Britaniya bu addımı atmışdır: «Vergi dərəcələrini yüksək saxlamaqla avstraliyalıları işə necə qəbul etməyi və onların əməkhaqqını necə artırmağı təsəvvürümə gətirə bilmirəm».

# «Samsung»un rəhbəri vergidən yayınmaqda şübhəli bilinir

«Reuters» agentliyinin məlumatına əsasən, Cənubi Koreyanın hüquq-mühafizə orqanları «Samsung» konserninin prezidenti Li Hon Xi haqqında vergi ödəməkdən yayınma ilə bağlı iddia qaldırmışdır. Şirkət rəhbəri vergidən yayınmaq üçün öz tabeliyində olan işçilərin adına açdığı çoxlu sayda bank hesablarından istifadə etməkdə şübhəli bilinir.

«Samsung»un prezidenti və şirkətin digər rəhbərlərindən biri 8,2 milyard von (təxminən 7,5 milyon ABŞ dolları) məbləğində vergi yayındırmaqda şübhəli bilinən 72 vəzifəli işçinin adına açılmış 2760 bank hesabından istifadə etmişlər», - Cənubi Koreyanın Milli Polis Agentliyinin açıqlamasında bildirilmişdir.

Hazırda hüquq-mühafizə orqanları işi prokurorluğa istiqamətləndirmək istəyirlər. «Samsung» rəhbərinin səhhətində ciddi problemlər olduğuna görə, hələ onun danışığa cəlb edilməsi mümkün olmamışdır.

# Turistlərdən vergi tutulacaq

Rusiyanın Turizm Operatorları Assosiasiyasının məlumatına əsasən, 2018-ci il boyunca Yunanıstanın mehmanxanalarında və lisenziya almış apartamentlərində hər sutka üçün turist vergisi yığılacaq. Vergini ya əvvəlcədən, ya da mehmanxanada qalmaq müddəti başa çatandan sonra ödəmək mümkündür. Verginin məbləği isə mehmanxananın «ulduz» sayından asılıdır. «Beşulduz» mehmanxanada bir nömrə üçün gündəlik verginin məbləği 4 avro, «dördulduz» mehmanxana üçün 3 avro, «üçulduz» nömrə üçünsə 1,5 avro müəyyənləşdirilmişdir. Aşağı kateqoriyalı qonaq yerlərində bir gecə qalmaq üçün 0,5 avro vergi ödəmək lazım gəlir.

«Dördulduz» səviyyəli apartamentin bir günlük vergisi 1 avro, «üçulduz» üçün 0,5 avro, «ikiulduz» və «birulduz» apartamentlərinki isə 0,25 avrodur. Turizm Operatorları Assosiasiyasının məlumatında o da qeyd edilmişdir ki, Yunanıstanda bəzi hotellər, əsasən də yüksək kateqoriyaya aid bahalı mehmanxanalar turist vergisini öz üzərlərinə götürməyə hazır olduqlarını bildirmişlər.



# ABŞ vergi şəffaflığını itirməkdə ittiham olunur



Senator Şeldon Vaythauz Senatın son iclaslarından birində ABŞ-ın dünyadakı çirkli pulların «yuyulmasında» rolundan danışmışdır. «Bizim Avropadakı tərəfdaşlarımız «birgünlük» firmaların yardımı ilə anonim benefisiarlar üzərindən törədilən cinayətkarığa qarşı mübarizədə əllərindən gələn hər şeyi edirlər. Əgər biz ən yaxın zamanlarda onlardan nümunə götürməsək, qorxuram ki, bütün dünyada ədalət etalonu olmaq statusumuzu itirmək təhlükəsi ilə üz-üzə qalaq», - Senatın Məhkəmə komitəsinin dinləmələri zamanı Ş.Vaythauz belə demişdir.

Vergi Ədaləti Şəbəkəsinin (TJN) fevralın əvvəlində hazırladığı siyahıda ABŞ vergi məhkəməsinin strukturunda maliyyə şəffaflığının çatışmazlığına görə dünyada ən pis göstəriciyə malik ikinci ölkə kimi göstərilmişdir. Korrupsiya ilə mübarizə cəmiyyətinin 2018-ci il üzrə maliyyə sirləri indeksi göstəricilərinə əsasən, ABŞ-ın önündə olan yeganə ölkə İsveçrədir.

Dünyada offşor maliyyə xidmətlərinin böyük hissəsi hazırda ABŞ-ın payına düşür. Bu məsələdə Delaver, Nevada və Vayominq kimi ştatlar xüsusi rol oynayırlar. 2012-ci ildə aparılmış akademik araşdırmalardan birində göstərilmişdi ki, ABŞ-da «birgünlük» şirkət yaratmaq Panama ilə müqayisədə daha asansdır. Amerikanın offşor şirkətlərinin illər uzunu qeyri-qanuni fəaliyyət üçün istifadə edilməsinə baxmayaraq, ABŞ-da bu vəziyyəti düzəltmək hələ mümkün olmamışdır. Vergi Ədaləti Şəbəkəsinin 2015-ci ildə tamamlanmış son araşdırmasında bu sahə üzrə ABŞ üçüncü yerdə olmuşdur, onun dünya offşor bazarındakı payı isə 19,6 faizdən 22,3 faizə yüksəlmişdir. Bu indeks hər bir yurisdiksiyanın məxfiliyi ilə bazardakı payının uzlaşdırılması əsasında müəyyənləşdirilir.

Hesabatda qeyd olunmuşdur ki, ABŞ dövləti digər ölkələrlə vergilərə dair informasiyaların mübadiləsində iştirak etməkdən boyun qaçırır və bir sıra ştatlar tərəfindən aqressiv şəkildə satılmış anonim şirkət və trestlərdən istifadə olunmasına son qoya bilmir: «Hazırda dünya iqtisadiyyatı üçün qeyri-qanuni maliyyə axınlarının təbliğinin vurduğu ziyanla bağlı real təhlükə mövcuddur».

Dünyadakı on ən qeyri-şəffaf vergi yurisdiksiyasından üçünün Avropa İttifaqı ərazisində yerləşdiyinə baxmayaraq ittifaqa daxil olan ölkələrin hökumətləri şəffaflığın gücləndirilməsi üçün böyük səylər göstərirlər. Vergi Ədaləti Şəbəkəsinin baş icraçı direktoru Aleks Kobhem diqqəti bir sıra Avropa ölkələrinin şirkətlərin son sahiblərinin reyestrini tərtib etdikləri faktına yönəltmişdir. Bu reyestrlər hələ nəşr edilməmişdir, lakin keçən il «Cənnət sənədləri»nin («Paradise Papers») üzə çıxmasından sonra Avropa İttifaqına daxil olan ölkələrin hamısı 2020-ci ilə qədər tam açıq reyestrin yaradılması barədə razılığa gəlmişdir. A.Kobhem yaydığı elektron məktubda bunu vergidən yayınmaya qarşı mübarizədə «böyük sıçrayış» adlandırmışdır.

Böyük Britaniya offşor şirkətlərin benefisiarlarının ictimaiyyət üçün açıq reyestrinin təşkili kimi güclü daxili tədbirlər görməsi sayəsində siyahıda 15-ci sıradan 23-cü sıraya enərək, öz vəziyyətini bir qədər yaxşılaşdırmışdır. Bununla belə, bu ölkə offşor bank bazarında 17,4 faizlik əhəmiyyətli paya sahibdir. Kayman adaları və Britaniyaya məxsus Virciniya adaları, eləcə də Hernsi və Cersi kimi ərazilərlə Böyük Britaniya qeyri-şəffaflıq indeksində birinci yerdədir.

Hazırda offşor bank hesablarında gizlədilmiş vəsaitlərin ümumi məbləği müxtəlif mənbələrdə 21 trilyon dollardan 32 trilyon dollara qədər qiymətləndirilir ki, bu da dünyadakı sərvətlərin 10 faizinə yaxındır. Maliyyə sirləri indeksinin ümumi məqsədi isə «dünyanın şəffaf maliyyə və vergi sistemindən hələ nə qədər uzaqda olduğunu açıb göstərmək, təsir gücünə malik iqtisadi və siyasi subyektlərin məsuliyyətə cəlb ediməsinin necə mühüm olduğunu nümayiş etdirmək, eləcə də ədalətli bazar rəqabətini təmin etməkdir.

# Məhkəmə Aleksis Sançesi bağışlamadı

İngiltərənin məşhur «Mançestr Yunayted» futbol klubunun hücumçusu, əslən Çilidən olan Aleksis Sançes vergi fırıldaqları ilə məşğul olduğuna görə, İspaniyanın hüquq-mühafizə orqanları tərəfindən 16 aylıq şərti həbs cəzasına məhkum edilmişdir. Sançes İspaniyanın «Barselona» komandasında oynayarkən vergi orqanlarından 900 min avro vəsaiti gizlətdiyini etiraf etmişdir. O, vergi ödəməkdən yayınmaq və öz gəlirlərini gizlətmək məqsədilə 2012-2013-cü illərdə Maltada «Numidia Trading» adlı offşor şirkət açmışdır.

Şərti məhkumluq cəzası ilə bərabər, A.Sançes yayındırdığı verginin tam məbləğini və yığılmış cərimə faizlərini İspaniyanın dövlət büdcəsinə ödəyəcək.




krossvord

**Yuxarıdan aşağı:** 1.Riyaziyyatçı alim, Kaliforniya Universitetinin professoru; 2.Futbolda vəziyyət; 3.Pişikkimilər fəsiləsinin qar bəbirləri cinsinə aid heyvan növü; 4.Qədim Roma memarlığında kirayə üçün nəzərdə tutulan çoxmərtəbəli yaşayış evi; 5.Hicri təqvimində aylardan biri; 6.RF-nin Kalininqrad vilayətində şəhər; 7.Yamaykadan 290 km şimal-qərbdə yerləşən ada; 13.Avropanın əksər ölkələrinin ümumi pul vahidi; 15.Formula-1-in alman pilotu; 16.Kiçik Asiyada antik şəhər; 17.Tibdə, xüsusilə psixatriyada hərəki pozğunluğunun bir növü. Hərəkətsizlik, taqətsizlik, halsızlıq, qıcığa qarşı reaksiya sönüklüyü; 18.Bir sıra ölkələrdə xırda pul vahidi; 20.Xəzər dənizində yerləşən, Azərbaycana məxsus ada; 21.Polineziya xalqı. **Soldan sağa:** 1.Elektrik dövrəsində gərginliyi sabit saxlayan yarımkeçirici cihaz; 8.İctimai nəqliyyat növü; 9.Qıpçaq əsilli Qızıl Orda sərkərdəsi; 10.Yunanıstanın cənub-şərqində şəhər; 11.İsveçrənin cənub-qərbində şəhər; 12.Azərbaycan kinorejissoru, ssenaristi, Azərbaycan SSR Dövlət mükafatı laureatı (1978), Azərbaycanın xalq artisti. «Bir cənub şəhərində», «Babək», «Nizami» kimi populyar filmlərin rejissorunun adı; 14.Heyvan növü; 19.Orta əsrlərdə Avropada əmlakın (əsas etibarilə torpaq mülkiyyətinin) yalnız böyük oğula, ya da nəslin ağsaqqalına keçməsi haqda varislik qaydası; 21.Tanınmamaq və ya müdafiə məqsədi ilə üzə geyinilən əşya; 22.RF-nin Yaroslavl vilayətində çay; 23.Mübahisə, müzakirə, disput və s. zamanı birinin fikrinə, mülahizəsinə etiraz, yaxud onları təkzib edən şəxs; 24.Hər tərəfdən su ilə əhatə olunmuş, təbii yolla yaranan quru torpaq sahəsi; 25.İngiltərənin mərkəzi-qərb bölgəsində şəhər.



«Bir cənub şəhərində» filmindən epizod

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Külüs; 2.Nəbahat (Çehrə); 3.İvrea; 4.Talabı; 5.Duatlon; 6.Rübab; 7.Balina; 13.Nias; 15.Varşava; 16.Eşelon; 17.Çələbi; 18.Kolıma; 20.Hədik; 21.Kramp. **Soldan sağa:** 1.Konkistador; 8.Liberal; 9.Akbel; 10.Səhra; 11.Balaban; 12.Stend; 14.Aniva; 19.Şahzadə; 21.Karqo; 22.Lada; 23.Kəlağayı; 24.Nik; 25.Olimpiada.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Velosipedçilərimiz mövsümə qələbə ilə başladı

**Azərbaycanın şose velosipedi üzrə «Synergy Baku Cycling Project» kontinental komandası 2018-ci ildə ilk uğuruna imza atıb. Türkiyədə keçirilən birgünlük Alanya Qran-Prisi elit yığmamızın və «Synergy Baku»nun üzvü Kiril Pozdnyakovun qələbəsi ilə yekunlaşıb.**




Azərbaycan Velosiped İdmanı Federasiyasının yaydığı xəbərə görə, Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 175 kilometrdən ibarət 1.2 kateqoriyalı yarışında ümumilikdə 21 komanda iştirak edib. Qran-Pridə ölkəmizi Elçin Əsədov, Elgün Əlizadə, Kiril Pozdnyakov, Ənvər Asanov, Samir Cəbrayılov, Musa Mikayılzadə və Aleksandr Polivadadan ibarət idmançılar təmsil edib. Yarışda «Synergy Baku»nun əla komanda işinin nəticəsi olaraq, Kiril Pozdnyakov məsafəni 4 saat 3 dəqiqə 42 saniyəyə başa vurub və ən yaxın izləyicisini 1 dəqiqə 20 saniyə qabaqlamaqla «solo-finiş» edib. Bu qalibiyyət velosipedçimizə, həmçinin, 40 reytinq xalı da qazandırıb. Bundan başqa, finişi 4-cü keçən Aleksandr Polivada komandamızın aktivinə daha 20 xal əlavə edib.

Qeyd edək ki, «Synergy Baku»nu həftəsonu Türkiyədə keçiriləcək daha bir yarış gözləyir. Velosipedçilərimiz fevralın 22-25-də təşkil olunacaq 2.2 kateqoriyalı 4 mərhələdən ibarət Antalya Turunda mübarizə aparacaqlar.

# «Ağ Olimpiada»da iki rekord qeydə alınıb

«Pxençan-2018» Qış Olimpiya Oyunlarının on birinci günündə norveçli Hovar Lorentsen 500 metr məsafəyə konkisürmə yarışlarında Olimpiya, kanadalı fiqurlu konkisürənlər Tessa Virçu və Skott Moyr isə dünya rekordunu yeniləyiblər.

Kişi cütlüklər arasında bobsley yarışlarında Kanada idmançıları qızıl medal qazanıblar. Almaniya idmançıları yarışı ikinci, Latviya təmsilçiləri isə üçüncü pillədə başa vurublar.

Kişilər arasında xizəklə böyük tramplindən tullanma üzrə komanda yarışlarında Norveç idmançıları 1098,5 xalla bütün rəqiblərini qabaqlayıblar. Almaniya xizəkçiləri gümüş, Polşa təmsilçiləri isə bürünc medala sahib olublar.

Kişilər arasında 500 metr məsafəyə konkisürmə yarışlarında norveçli Hovar Lorentsen 34,41 saniyə göstərici ilə Olimpiya rekordunu yeniləyib. Koreyalı atlet Ça Min Kyu gümüş, Qao Tinqyu isə bürünc medala sahib olublar.

«Ağ Olimpiada»da on birinci günün yekunlarına görə, Norveç millisi «Pxençan-2018» Qış Olimpiya Oyunlarının medal sıralamasında liderliyini davam etdirir. Bu ölkənin hesabında 11 qızıl, 9 gümüş və 8 bürünc medal var. Ümumilikdə 27 ölkədən idmançılar medalçılar arasında yer alıblar. Almaniya (10-6-4) ikinci, Kanada (6-5-6) üçüncü, Niderland (6-5-2) dördüncü, ABŞ (5-3-2) isə beşinci pillədə qərarlaşıb.

# Mariya son saniyələrdə «qızıl»ı əldən verdi

İsveçin Klippan şəhərində qadın güləşi üzrə açıq beynəlxalq turnir keçirilib. Bu, qadın güləşçilərin reytinq xallarının hesablandığı ilk yarışdır. Komandamızın lideri Mariya Stadnik turnirdə uğurla çıxış edib.

Əlli kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Rumıniya, Kanada və ABŞ-dan olan rəqiblərini vaxtından əvvəl və tam üstünlüklə məğlub edib. Qarşılaşmalarda ümumilikdə 32 xal qazanan təmsilçimiz heç bir rəqibinə xal verməyib. Olimpiya Oyunlarının ikiqat gümüş və bürünc mükafatçısı, dünya və altıqat Avropa çempionu Mariya Stadnikin həlledici görüşdə rəqibi ötənilki Asiya və dünya çempionu yaponiyalı Yui Susaki olub. Gərgin keçən final qarşılaşmasında son saniyələrdə 2:1 hesabı ilə üstün olan Mariya Stadnik bu üstünlüyü



qoruya bilməyib və son xalı rəqib qazandığından qələbə yaponiyalı idmançıya verilib və idmançımız gümüş medalla kifayətlənib.

Qeyd edək ki, 2018-ci ilin təqvim planında nəzərdə tutulan qitə və dünya çempionatları ilə yanaşı, hər bir güləş növündə seçilmiş 4 turnirin nəticəsinə əsasən reytinq yarışlarında iştirakçıların sayı və güləşçilərin qazandığı nəticələr üzrə xallar toplanaraq sıralamanı müəyyənləşdirəcək.

# Azərbaycan cüdoçuları beynəlxalq turnirlərdə...

Avstriyanın Obervart şəhərində cüdo üzrə açıq Avropa birinciliyi başa çatıb. Cüdoçularımız beynəlxalq turnirdə 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar.

Azərbaycan millisinin üzvləri Mehman Sadıqov (60 kq) və Orxan Səfərov (66 kq) bütün rəqiblərinə qalib gələrək çempion adını qazanıblar. Yetmiş üç kiloqram çəki dərəcəsində mübarizə aparan Telman Vəliyev yalnız finalda uduzaraq gümüş medala layiq görülüb. Vüqar Şirinli (66 kq) və Firudin Dadaşov isə (90 kq) turnirin bürünc medalına sahib olublar. Yekun nəticədə cüdo üzrə milli komandamız medalların sayı və əyarına görə bütün ölkələri qabaqlayaraq birinci yeri tutub.

İspaniyanın Fuenqirola şəhərində isə yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışları başa çatıb. Azərbaycan Cüdo Federasiyasının xəbər verir ki, 36 ölkədən 471 idmançının mübarizə apardığı beynəlxalq turnirin ikinci günündə Azərbaycan millisi 1 gümüş və 2 bürünc medal qazanıb. Oğlanların mübarizəsində Yaqub İsmayılzadə (90 kq) gümüş, Hacıbala Cəbrayılov (73 kq) və Toğrul Salmanov (90 kq-dan yuxarı) bürünc medala sahib olublar. Bununla da yeniyetmə cüdoçularımız İspaniya turnirini 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurublar. Xatırladaq ki, Avropa kubokunun ilk günü Vüsalə Kərimova qızıl, Mirağa Hacıyev isə gümüş medal qazanıblar.

Qeyd edək ki, İspaniya turniri bu il Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyıb.

## mozaika

texnologiya

# «WhatsApp» messencerdə pulköçürmə sistemi

«WhatsApp» artıq Hindistanda ödəniş sistemini sınaqdan keçirir. Ekran görüntülərində bu sistemi dəstəkləyən banklardan ibarət böyük siyahını görmək olar. Funksiyadan istifadə etmək üçün SMS-kod vasitəsilə telefon nömrəsini təsdiqləmək və hesab açılmış bankı seçmək lazımdır.

Pulköçürmə sistemi «Unified Payments Interface» (UPI) interfeysinə əsaslanır. İstifadəçilər bir-birinə pulu birbaşa messencerdə komissiyasız göndərə biləcəklər. İlkin mərhələdə messencer yalnız istifadəçilər arasında ödənişləri dəstəkləyəcək. Gələcəkdə şirkət messencerə Çinin «WeChat» messencerində olduğu kimi, müxtəlif xidmətlərin ödənişini əlavə edə bilər (məsələn, taksi, yaxud yemək sifariş etmək və ödəmək).




nanotexnologiya

# Pozulmayan yol boyası

Türkiyədə təhsil alan 17 yaşlı azərbaycanlı Cavid Bayramlı özünün türk yaşıdı Kerem Acar ilə birlikdə silinməyən yol boyası yaradıb. «Fen bilimleri temel lisesi»ndə təhsil alan yeniyetmələrin ağlına bu ideya qarşılaşdıqları yol qəzasından sonra gəlib. Onlar həmin qəzanın yola çəkilmiş işarənin pozulduğuna görə baş verdiyini görüblər.

Tələbələr hadisədən sonra nanotexnologiya ilə «Robust Dye» adı verdikləri boyanın istehsalının ilk sınağına 2016-cı ildə başlayıblar və bir il müddətində məhsul tam hazırlanıb. Zərbəyə, günəşə və yağışa davamlı olan boyanın istifadəsi təkcə asfalt yollar üçün deyil: ondan təsərrüfat və heyvandarlıq sahəsində də istifadə etmək mümkündür.

İstanbul Böyükşəhər Bələdiyyəsi gənclərə dəstək olmaq üçün hazırda istifadə olunan boya ilə «Robust Dye»nı müqayisə edib və məlum olub ki, «Robust Dye» indi istifadə edilən yol boyalarından dəfələrlə davamlıdır.

Tələbələr bildiriblər ki, kəşflərini yaxın 10 il ərzində bütün Türkiyənin asfalt yollarında görmək istəyirlər: «Boyanın Türkiyənin bütün asfalt yollarında, hava limanlarında, quru və su nəqliyyatında tətbiq etməyi, eləcə də «Robust Dye»ın satış mərkəzini yaratmağı planlaşdırırıq».

cəmiyyət

# Mobil telefonlar beyin xərçəngi yaratmır

Mobil telefonlar insanların gündəlik həyatına daxil olmağa başladığı ilk illərdən sual doğuran məsələlərdən biri də bu texnologiya möcüzəsinin insanlarda beyin xərçəngi yaradıb-yaratmaması ilə bağlı olub.

Amerikalı alimlər mobil telefonun radiotezlik şüalarının insan sağlamlığına təsirini araşdırıblar. Onların məqsədi bu növ qurğulardan olan şüalanmanın vaxt ötdükcə beyin xərçəngi yaratması ilə bağlı çoxsaylı nəzəriyyələri təkzib, yaxud sübut etmək olub.

Mobil telefonlarda olan şüalanma rentgen zamanı yaranan ionlaşan şüalanma ilə müqayisədə daha təhlükəsizdir. İonlaşan şüalanma dezoksiribinuklein turşusunun zədələnməsinə səbəb ola bilər ki, bu da nəticədə insanda xərçəng xəstəliyi yaradır. Alimlər sübut ediblər ki, mobil telefonlardan çıxan radiotezlik şüalanma tamamilə başqa cür təsir göstərir.

Amerika Onkologiya Cəmiyyətinin əsas tibbi əməkdaşı Otis Brauli bildirib ki, mobil telefondan istifadə zamanı insanda xərçəng xəstəliyinin yaranması ilə bağlı sübut yoxdur.

# Uşaqların təhlükəsizliyi üçün yeni mexanizmlər

Müasir dövrümüzdə internet yalnız maraqlı və əhəmiyyətli məlumatlarla deyil, həm də ziyanlı və təhlükəli veb-səhifələrlə dolu olan qlobal şəbəkədir. Uşaqlara zərərsiz olan veb-səhifələrin axtarışı, aşkarlanması və əldə edilməsi üçün xüsusi metod və vasitələrdən istifadə olunmalıdır. Onların internetdə təhlükəsizliyinin təmin edilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İnformasiya Texnologiyaları İnstitutunda yeni mexanizmlər hazırlanır.

Hazırda uşaqların internetdən təhlükəsiz istifadəsi problemlərinin həllinə yönəlmiş çoxlu sayda proqram təminatlarının olmasına baxmayaraq, daha optimal üsulların, etibarlı proqram vasitələrinin və mexanizmlərin yaradılmasına ehtiyac var.

Son vaxtlar təhlükələrin yaratdığı problemlərin qarşısının alınması məqsədilə veb-analitika və s. sistemlər yaradılır. Uşaq və yeniyetmələrin təhlükəsizliyinin təmin edilməsi məqsədilə profilaktik tədbirlər, valideynlərlə iş, informasiya resurslarının təbiqi, texniki nəzarət kimi üsullardan istifadə olunur.

Hazırda bu istiqamətdə işlər davam etdirilir.

maraqlı

# Ən sürətli heyvan

Yer kürəsinin ən sürətli, çəld və dəqiq canlı varlıqları saniyənin səkkizdə bir hissəsi ərzində 360 dərəcə fırlanmaq və qurbanına dəqiq zərbə endirmək bacarıqlarına malik olan hörümçək-krablar hesab olunublar.

Alimlər bütün hörümçəklərin ov torlarından istifadə etmədiyini, təxminən onların yarısının qurbanını güdərək və ona tullanaraq tutmağa çalışdığını, digərlərinin isə hörümçək-krablar kimi qurbanlarına pusqudan hücum etdiklərini bildiriblər. Elm adamları bu hörümçəklərin belə fəndləri necə etdiklərini araşdırdıqlarını qeyd ediblər.



Bir qayda olaraq, Yer kürəsinin ən güclü, itigözlü və sürətli varlıqları, ölçülərindəki fərqləri nəzərə alınmaqla məməlilər və ya digər onurğalılar deyil, həşəratlar və başqa onurğasızlardır. Kaliforniyalı bioloqlar aydınlaşdırıblar ki, Cənubi və Şərqi Asiya ölkələrində evlərdə və meşələrdə yaşayan adi hörümçək-krablar heyvanlar aləminin belə «super qəhrəmanları»nın siyahısına daxildirlər. Onlar yüksəksürətli kameranın köməyi ilə bu buğumayaqlı varlıqların həşəratları necə tutduqlarını müşahidə edərək belə nəticəyə gəliblər.

Həmin hörümçəklər öz hərəkət tərzinə görə qeyri-adidir - onlar dəniz xərçəngləri kimi yan tərəflərə və arxaya gedə bilərlər və inanılmaz dərəcədə yüksək çevikliyə malikdirlər. Belə ki, əgər onlar açıq divarda və ya tavanda olsa belə, demək olar ki, onları tutmaq mümkün deyil.

Tədqiqat zamanı məlum olub ki, bu hörümçəklər unikal qabiliyyətə malikdirlər - onlar təxminən bütün bu mürəkkəb əməliyyatları 0,12 saniyə ərzində icra edərək praktik olaraq bir anda dönə, qurbanı tuta və ona öz köpək dişlərini batıra bilərlər. Tədqiqatların nəticəsinə əsasən, onlar belə manevri ayaqlarının unikal anatomiyasının və onların işini idarə edən davranışın qeyri-adi proqramının sayəsində edə bilər.

Həmin hörümçəklərdə qurbana ən yaxın ayaq xüsusi lövbər və vasitə rolunu oynayır. Hörümçək öz bədənini qaldırmaq və onu gələcək nahara tərəf atmaq üçün həmin ayaqdan istifadə edir. Bədənin əks tərəfindəki ayaqlar onu torpaqdan uzaqlaşdırır, fırlanma anı yaradır, sonra isə bükülürlər.

Bioloqların qeyd etdiyi kimi, bu üsul hörümçəyə 40 faiz daha sürətlə dönməyə və qurbanın bədəninə dəqiq zərbəni vurmağa imkan yaradır.

Alimlər vurğulayıblar ki, bu tullanma tamamilə «avtomatik» və reflektor deyil - hörümçək qurbanın harada olduğunu bilir, ona qaçmağa imkan verməmək və dəqiq zərbə endirmək üçün dönməni və tullanmanın gücünü hesablayır.

Bioloqlar ümid edirlər ki, onların bacarığının sirləri real hörümçəklər kimi məharətlə və cəld hərəkət etmək qabiliyyətinə malik robotlar yaratmağa kömək edəcəklər.

mədəniyyət

# Metropoliten qatarlarında klassik musiqi

Tokio metropoliteninin qatarlarında eksperiment olaraq klassik musiqi əsərlərinin səsləndirilməsinə başlanıb. Məqsəd sərnişinlərin səfərini daha rahat etməkdir. «Tokyo Metro» şirkəti həmin eksperimenti yanvarın 29-dan tətbiq etməyə başlayıb.

İdeya ötən ilin iyulunda qatarların xəttə buraxılması ərəfəsində səsləndirilən melodiya əvəzinə səhvən klassik musiqinin verilməsindən sonra meydana gəlib.

Bu barədə xəbər sosial şəbəkələrdə yayıldıqdan sonra sərnişinlərin əksəriyyəti öz şərhlərində bu gözlənilməz musiqi fonunun insanlarda xoş təəssürat yaradacağını bildirib.

Şirkət bu xidmətin təqdim edilmə vaxtını, musiqi janrını və səsin ucalığı məsələlərini araşdırdıqdan sonra ondan istifadə barədə rəsmi qərar qəbul edəcək.

**Müdriklər deyib ki...**



*«Yaxın insanlara münasibətdə ən böyük günah nifrət deyil, laqeydlikdir».*

*Bernard Şou (1856-1950)*